# 9 NOYABR 2020

SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 31 / 2020-ci il

# DÖVLƏT BAYRAĞI GÜNÜ
# ŞUŞA İŞĞALDAN AZAD EDİLDİ



# Böyük, ya da kiçik nailiyyətlərinizi qeyd etməyə vaxt ayırın



Əziz həmkarlar,

Ənənəvi olaraq, son aylarda və ümumilikdə qazandığımız irəliləyişi yada salmaq və qeyd etmək üçün keçmişə nəzər salmağa vaxt ayırırıq.
Qazandığımız nailiyyətləri vurğulamaqdan məmnunluq duyuram:

- SOCAR Polymer istehsala davam etmiş və satışlarını artırmışdır
- SOCAR Polymer 2020-ci ilin birinci yarısında 2019-cu ildəkindən daha çox polimer satmışdır
- SOCAR Polymer Azərbaycanın qeyri-neft sektorundakı qeyri-dövlət ixracatçıların ilk onluğunda liderdir
- SOCAR Polymer Rusiyanın ən böyük homopolimer PP idxalçısı olaraq qalır. Belə ki, RF bazarının bu növə olan tələbatının təxminən 40% -ni təmin edir
- Yerli satışlarımız 2019-cu ildəki illik 5.326 tondan 2020-ci ilin yanvar-sentyabr aylarında 15.202 tona çatmaqla, demək olar ki, üç dəfə artmışdır.
- Yerli-xarici satış nisbətimiz durmadan artır
- 2020-ci ildə yerli alıcılarımız arasında indiyə qədər 35 şirkət və 3 fiziki şəxs vardır
- Bu il planlaşdırılan tam miqyaslı fasiləli dayanma fəaliyyətləri tamamilə daxili imkanlarımız hesabına həyata keçirilmişdir

Əlavə olaraq, heyətimiz yalnız istehsalla əlaqəli vəzifələri yerinə yetirməkdə deyil, həm də COVID-19 təhdidinə qarşı hərəkət etməkdə və Qarabağdakı hərbi əməliyyatlarla əlaqədar qabaqlayıcı tədbirlər görməkdə səriştəlilik nümayiş etdirmişdir. Bizim üçün bu, torpaqlarımızın azad edilməsi kimi nəcib amal uğrunda çoxdan gözlədiyimiz vətən müharibəsidir.
**Qarabağ Azərbaycandır və bu fakt hər bir SOCAR Polymer işçisinin qəlbindədir. Təxminən on həmkarımızın vətənimizin ərazi bütövlüyünü bərpa etmək üçün orduya qoşulduğunu qeyd etməkdən qürur duyuruq və tezliklə tam qələbə qazanmağı ümid edərək onları dualarımızda qeyd edirik.** Əməkdaşlarımız isə öz növbəsində ordumuzu dəstəkləmək üçün əsgərlərə lazımlı malların alınması üçün ianələr etməkdə könüllü olmuş və eləcə də, rəsmi Silahlı Qüvvələrə Yardım Fonduna böyük məbləğdə ianə etmişlərdir.
Sonda bir daha sizlərə görülən işlərdən ötrü təşəkkür edir və hamınızı gələcək hədəflərimizə töhfə verməyə davam etməyə çağırıram. Bizim məqsədimiz yüksək miqdarda və yuxarı keyfiyyətdə məhsulların təhlükəsiz və davamlı istehsalıdır.

Fuad Əhmədov
Baş Direktor

# Şuşa şəhəri - Qarabağın ürəyi qayıtdı




**Şuşa - Qarabağın döyünən ürəyi, fəxrimiz, milli ləyaqətimizin rəmzi... Düz 28 il və 6 ay sonra düşmən işğalından azad olunaraq hüquqi və əsl sahibinə qayıtdı.**

Hamımız xəritədə qeydlər apararaq güclü inam hissi ilə şad xəbərə qalan günləri sayırdıq və nəhayət, qorxmaz ordumuz 30 ilə yaxın dağıdıcı işğal müddətindən sonra Şuşanın azad olunması xəbərini Azərbaycan xalqına bəxş etdi.

Azərbaycanda Bayraq Günü ərəfəsində milli bayrağımız, axır ki, Şuşanın qala divarları üstündə dalğalanır. Rəşadətli ordumuz qarşısında baş əyir, Vətənimizin ərazi bütövlüyü, gücü və ləyaqəti uğrunda canını fəda etmiş qardaşlarımızın ruhları üçün dua edirik! Qələbə sevincimiz ölməz qəhrəmanlarımıza olan dərin minnətdarlıq hissi ilə sıx bağlıdır! Bu mühüm qələbəyə görə sizə minnətdarıq! Yaşasın Azərbaycan, yaşasın Ölkə Başçımız, yaşasın Azərbaycan ordusu!



*Biz torpaqlarımızı xalqımızın, əsgərlərimizin və zabitlərimizin verdiyi qurbanlar hesabına işğalçılardan azad edirik. Bu gün mən bir daha şəhidlərimizin qarşısında baş əyirəm.*

**- İlham Əliyev**











# SOCAR Polymer şirkətinin rəhbərliyində struktur dəyişikliklər




SOCAR şirkətinin qərarı ilə SOCAR Polymer şirkətinin rəhbərliyində bir sıra struktur dəyişikliklər baş vermişdir. Buna səbəb, SOCAR şirkətlər qrupunun beynəlxalq layihələri çərçivəsində işlərin artan həcmi, qarşıda qoyulmuş vəzifələrin genişlənən əhatəsi, habelə həm SOCAR RUS şirkətinin baş direktoru, həm SOCAR Enerqoresurs MMC-nin rəhbəri, həm də SOCAR-ın maliyyə və iqtisadiyyat üzrə vitse-prezident müavini olan Fərid Cəfərovun artan vəzifə öhdəlikləri olmuşdur.

Fərid Cəfərov 2013-cü ildən SOCAR Polymer şirkətinin baş direktoru olmuş və hal-hazırda SOCAR Polymer İnvestments holdinqinin baş direktoru və hüquqi təmsilçisi olaraq qalır.

2020-ci ilin 1 sentyabr tarixindən Fuad Əhmədov SOCAR Polymer şirkətinin baş direktoru vəzifəsinə təyin olunur.

Fuad Əhmədovun iş təcrübəsinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Xarici Sərmayələr şöbəsinin rəhbəri vəzifəsində çalışdığı illər daxildir. 2011-ci ildə o, SOCAR şirkətində maliyyə üzrə baş müşavir vəzifəsinə qəbul edildi. 2016-cı ildə SOCAR Polymer şirkətində maliyyə meneceri vəzifəsində işə başlayaraq daha sonra baş direktor müavini təyin olundu. Fuad Əhmədov Böyük Britaniyanın İmperial College London təhsil müəssisəsində magistr dərəcəsini almışdır.

# Polimer çeşitləri artır

**2020-ci ilin 3-cü rübündə davam edən antivirus tədbirləri və karantin məhdudiyyətindəki sərt iş şəraitinə baxmayaraq, SOCAR Polymer 4 yeni PP növü istehsal etdi:**



## HB4540MO HB6540MO CB4848MO CB6448MO

**HB4540MO** və **HB6540MO** növləri çox yüksək sərtlik və yüksək ərimə axını olan homopolimerləri; **CB4848MO** və **CB6448MO** yüksək heterofaz kopolimerləri, yüksək işləmə sürəti tələb edən və antistatik xüsusiyyətlərə malik sərt qablaşdırmada istifadə üçün hazırlanmışdır.

Bu markalar injeksiya ilə yüksək sürətli nazik divarlı qəlibləmə və sərt məmulatların standart injeksiya ilə qəlibləmənməsi üçün nəzərdə tutulmuşdur. Yeni homopolimerlər, xüsusilə, qida qablaşdırma sənayesində istifadə olunan polistireni əvəz etmək üçün əlverişlidir. Məhsul strategiyasına görə, yeni PP növləri əvvəlcə MDB bazarına ixrac ediləcəkdir.

## Polistirenlə müqayisədə PP-nin üstünlükləri nələrdir?

**Polistiren** stirendən istehsal olunan polimer materialıdır. Mənfi temperaturlara davamlı, şəffaf, sərt və ucuz olan polistiren tikinti, radiotexnika, qablaşdırma, istehlak malları, dəftərxana ləvazimatı, birdəfəlik tibbi ləvazimatlar və oyuncaq istehsalı da daxil olmaqla bir çox tətbiq sahəsinə malikdir. Yeyinti sənayesində polistiren əsasən sərt qablar, qida qablaşdırma və plyonka istehsalında istifadə olunur. Polistirenin yandırılması zəhərli stiren qazı və kimyəvi maddələr buraxdığından, daha etibarlı və uyğun bir materialla əvəz edilməsinə ehtiyac vardır. Polistirenin elastikliyini, sərtliyini və digər xüsusiyyətlərini artırmağa yönəlmiş kimyəvi qatqıların əlavə edilməsi daha çox təhlükəsizlik probleminə səbəb ola bilər.



**Polipropilen** Homopolimer (PPH) ən çox istifadə olunan polipropilendir. PPH kopolimerdən daha sərt və daha güclüdür. -1º - 82º F temperatur aralığında işləyə bilər. Yaxşı qaynaq qabiliyyətinə, termoformasiyada yüksək göstəricilərə, yaxşı kimyəvi müqavimətə malikdir və təbii rəngi USDA, FDA, NSF və 3-A süd məhsullarına uyğundur. PPH təbii, ağ və qara rənglərdə mövcuddur və formasına görə çubuq, təbəqə, zolaq və plyonka şəklində olur. Adi taxta və ya metal emalı avadanlığı ilə işlədilə bilər.





## Xüsusiyyətlər

- Yüksək güc-kütlə nisbəti
- Əla kimyəvi müqavimət
- Termoformasiya və aşındırıcı mühitlərdə yüksək performans
- Nəm udmaması
- Əksər turşu, qələvi, yağ azaldıcı maddələr və üzvi həlledicilərə qarşı müqavimət
- Yaxşı qaynaq qabiliyyəti
- Yüngülçəkili
- Zəhərli olmaması və rəng buraxmaması
- Yüksək dayanıqlılıq

## Tətbiqi

- Ortez və protez aparatları
- Örtük və anodlaşdırma prosesi avadanlığı
- Plenumlar və manifoldlar
- Nasos komponentləri
- İkincil saxlama
- Anbar çənləri
- Klapan gövdələri
- Metal işləmə
- Kimyəvi emal və saxlama
- Tibbi avadanlıqlar
- Paltaryuyanlar





**Heterofaza kopolimerləri (HECO)** PP-nin aşağı temperatur limitinin təsirinə davamlılığını artırmaq və onun sıfırdan aşağı temperaturda tətbiqinə imkan yaratmaq üçün hazırlanmışdır. HECO polimerləri qablaşdırma, avtomobil və ya infrastruktur kimi müxtəlif sahələrdə tətbiq olunur. Əlavə olaraq, heterofaza PP, injeksiya ilə qəlibləmə və ya ekstruziya kimi müxtəlif proseslərlə çevrilməyə məruz qala bilər ki, bu da bir çox məhsul növlərinin ortaya çıxmasına səbəb ola bilər. Bununla birlikdə, materialın və çevrilmə prosesinin diqqətlə seçilməsi böyük əhəmiyyət kəsb edir, çünki məhsulun son xüsusiyyətləri materialın morfologiyasından böyük dərəcədə asılıdır və bu da çevrilmə prosesindən çox təsirlənir.
Qablaşdırma sektorunda injeksiya ilə qəlibləmə və tökmə və üfürmə plyonka prosesləri böyük əhəmiyyət kəsb edir. Zərbəyə yüksək davamlılıq və sərtliyin birləşməsi qablaşdırma məhlulunun daşınma və saxlanma zamanı zərər almadan qalmasına imkan verir və içindəki maddələri qoruyur. Sterilizasiyadan sonra da yüksək şəffaflıq və parıltı göstərən heterofaza PP-nin inkişafı, dik dura bilən qablaşdırmalardakı kimi elastik qablaşdırma məhlulları üçün bu cür materialların istifadəsinə imkan verir. Yüksək saflığa malik PP-nin inkişafı və plastikləşdirilmiş polivinilxloriddə (PVC) plastikləşdiricilərin mənfi təsirləri ilə bağlı mübahisələr tibbi infuziya torbalarında və tibbi alətlərin qablaşdırılması kimi səhiyyə işlərində çox yumşaq olan heterofaza PP kopolimerlərinin istifadəsini artırdı. Heterofaza PP, xüsusiyyətlərinə görə ənənəvi çirkab su boruları materiallarına, məsələn beton, çuqun və ya gilə nisbətən bir çox üstünlük təklif edir və beləliklə də çirkab suları və drenaj sistemləri üçün geniş istifadə olunan bir materialdır. Morfologiyası imkan verir ki, material qırılmadan geniş deformasiyaya məruz qala bilsin. Əlavə olaraq, PP boruları yüksək aşınma və kimyəvi müqavimət səviyyələri ilə xarakterizə olunur.
Avtomobil bazarının yüngül çəkili həllərə və sərnişin və piyadalar üçün təhlükəsizliyə olan ehtiyacı heterofaza PP birləşmələri ilə qarşılana bilər. Artıq palçıqlıq, bamper və avtomobilin bir çox daxili hissələri kommersiya polimerlərindən hazırlanır. Bununla belə, avtomobilin xarici hissələri üçün təsir və sərtlik balansının boya ilə birləşməsi tələb olunur. Avtomobil salonlarında istifadə olunan materiallar səth estetikası (yumşaq toxunma, cızılmaya qarşı yüksək müqaviməti və aşağı səth yapışqanlığı) və saflıq baxımından əlavə tələblərə cavab verməlidir. Avtomobilin gövdə hissələrinin PP-dən hazırlanması ilə avtomobilin ümumi çəkisi əhəmiyyətli dərəcədə azaldıla bilər. Həmçinin də, material tamamilə təkrar emal oluna bilər və beləcə səmərəli istehsala təkan verər.





# “SOCAR Polymer”də **istehsal trendlərinə** ümumi baxış

**Uyğun** olaraq 2018-ci ilin iyulunda və 2019-cu ilin fevralında istifadəyə verilən SOCAR Polymer şirkətinin Sumqayıtdakı PP və YSPE zavodları ümumi 304000 ton istehsal gücünə malikdirlər.

2020-ci ilin ilk üç rübü ərzində SOCAR Polymer 70538,33 ton PP və 46552,21 ton YSPE istehsal etmişdir:




2019-cu ilin eyni dövrü (yanvar-sentyabr) ilə müqayisədə PP istehsalında bir qədər artım olmuşdur:




YSPE zavodunun 2019-cu ilin fevralında istismara verilməsindən bəri, istehsala yalnız 2019 və 2020-ci illərin ikinci yarısında planlaşdırılmış istehsalat fasiləsinin fəaliyyətləri üçün fasilə verilmişdir. Ümumilikdə, rəqəmlər 2020-ci ildə YSPE istehsalında artım olduğunu göstərir:




Hər bir polimer çeşidinin təyin edilmiş və ya ən çox tövsiyə edilən tətbiq sahələri olduğu nəzərə alınaraq, istehsalın bu baxımdan təhlili ortaya çıxardı ki, PP istehsalının 2019-2020 dövründə ən çox hədəflənən tətbiq sahələri liflər və injeksiya ilə qəlibləmə olmuşdur:



Bu arada, təxminən iki ildir istehsal olunan YSPE markalarının əksəriyyəti qara borular, birləşdirmə-ekstruziya və üfürmə üsulu ilə plyonka kimi tətbiqetmələr üçün olmuşdur:

**Müxtəlif tətbiqlər üçün ümumi YSPE istehsalı (ton)**




Karantin tədbirlərinə baxmayaraq, 2020-ci ilin əvvəlində istehsal planlaşdırılmış istehsalat fasiləsindən əvvəl artmışdır. 2020-cu ilin ilk 7 ayında ümumi istehsal (115980 ton) 2019-cu ilin eyni dövrü (63262 ton) ilə müqayisə olunduqda 83% artım olduğu görünür.

1 Avqust-1 Oktyabr tarixləri arasında planlaşdırılmış istehsalat fasiləsi tədbirlərinin həyata keçirilməsi səbəbindən 2020-ci ilin 3-cü rübündə istehsal əhəmiyyətli dərəcədə azalmışdır:

**Yanvar-İyul aylarında istehsalat, 2019/2020 (ton)**




**Polimer istehsalı, 2020 (ton)**



# Satış dinamikası və ixrac rəqəmlərinə baxış

"Report" xəbər agentliyinin İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın avqust sayına istinadən verdiyi məlumata görə, SOCAR Polymer Azərbaycanın qeyri-neft sektorunda ilk 10 qeyri-dövlət ixracatçıları arasında liderdir. Bu reytinqdə qərarlaşan digər yüksək səviyyəli şirkətlər bunlardır: "Land Lojistic" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Fruit Store" MMC, "Global Trade Group" MMC, "Sun Food" MMC, "Azagroeksport 2017" MMC, "Baku Steel Company", "Aqrovest" MMC.

Karantin tədbirləri səbəbindən bütün dünyada baş verən iqtisadi böhrana baxmayaraq, SOCAR Polymer 2020-ci ilin birinci yarısında ixracını artırmağı və istehsalını davam etdirməyi bacardı. Üçüncü rübdə isə 2 aydan da çox davam edən planlı fasilə dövrü ərzində profilaktik təmir və təkmilləşdirmə işlərini reallaşdırdı.

Belə ki, məsələn, 2020-ci ilin birinci yarısında SOCAR Polymer, 2019-cu ildəkindən daha çox polimer satmışdır.

**Yanvar-İyun aylarında satışlar, 2019/2020 (ton)**




Qeyd etmək lazımdır ki, istehsal başladıqdan bu yana qeydə alınan ən yüksək satış miqdarı 2020-ci ilin iyun ayında olmuşdur. Belə ki, ay ərzində 21482,20 ton polimer (% 53,84 PP və % 46,16 YSPE) satılmışdır.

**"SOCAR Polymer"in ixracatları 2019-2020, (ton)**




76268,69 ton PP və 54306,7 ton YSPE olmaqla, 2018-ci ilin sonundan bu yana satışların həcmi 130575,39 ton təşkil edib ki, bunun da 115373,47 tonu (88.36%) ixrac olunmuşdur.
2020-ci ilin ilk yarısında "SOCAR Polymer"in ixrac etdiyi məhsulun miqdarı, 2019-cu ilin eyni dövründə ixrac edilən miqdarla (45,6 min ton) müqayisədə iki dəfə artaraq 92,1 min tonu keçmişdir.

COVID-19-un mənfi təsiri 3-cü rüb(R3) statistikasında ixracatın 2020-ci ilin II rübü(R2) ilə müqayisədə 52% (26527,5 ton) azalması ilə özünü göstərdi. Üçüncü rübdə 16046,25 ton PP və 7500 ton YSPE ixrac edildi. 2019-cu illə müqayisədə satışların ümumi illik artımını göstərən rüblük ixrac dinamikası aşağıdakı cədvəldə göstərilib:

**Polimer ixracı, 2019/2020 (ton)**




**Polimer ixracatı 2019/2020 (ton)**



MDB ölkələrinə 2020-ci ilin bu gününə olan satış faizi əvvəlki ilə nisbətən 36% artmışdır. 2020-ci ilin yanvar-sentyabr aylarında ümumi ixracın 42% -i daha çox keyfiyyətli məhsullara üstünlük verən MDB bazarlarına yönəldilmişdir.

**MDB bazarının ixrac payı, 2019/2020 (ton)**




SOCAR Polymer 2020-ci ilin əvvəlindən RF Homopolimer PP-nin ən böyük idxalçısına çevrilmiş və hal-hazırda bazar tələbatının təxminən 40%-ni təmin edərək liderliyini qorumaqdadır. Xatırladaq ki, bu göstərici 2020-ci ilin yanvar-mart dövründə 42% -dən 61% -ə qədər artmışdır.

**Rusiya bazarının Homopolimer idxalçıları, 2020**




Üçüncü rübdə Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Qazaxıstan və Türkiyəyə satış həyata keçirilmişdir. Ümumilikdə, bugünədək ən çox satış reallaşdırdığımız (56%) Rusiya 3-cü rübdə bütün ixracımızın təxminən 70% -ni əhatə etmişdir.

**Ölkələr üzrə ixracatın paylanması, 3-cü rüb 2020**



2018-ci ilin oktyabr ayında ilk məhsul ixracından sonra SOCAR Polymer satış bazarının coğrafiyasını aşağıdakı ölkələri əhatə etməklə genişləndirməyə davam etdi:




"SOCAR Polymer"in əmtəə bazarındakı ən populyar polimer növləri PP üçün raffia və injeksiya, YSPE üçün isə boru, plyonka və üfürmə ilə qəlibləmə emal prosesləri üçün dizayn edilmişdir. Ən çox satılan PP və YSPE növləri bunlardır:

| PP | HDPE |
|---|---|
| HB 0356 FR | HM 0359 PE PIPE BL |
| HB 2552 FC FIBERS CONT | HL 1050 BF BLOWN FILM |
| HB 2500 GP INJ MLD | HD 0358 BM EBM |
| HB 3500 GP INJ MLD | HH 0961 MO INJ MLD |
| HB 0322 BF BOPP | |

2020-ci ilin fevral ayında SOCAR Polymer, ilin birinci yarısında YSPE satışlarının 44 %-ni təşkil edən yüksək keyfiyyətli boru polimer markası olan HM0359PE-in satışına başladı. 2019-cu ilin fevral ayında istismara verilən vaxtdan etibarən YSPE zavodu yüksək keyfiyyətli məhsulların kütləvi istehsalını hədəf alaraq getdikcə artan müxtəlif YSPE çeşidlərinin sınaq istehsalını həyata keçirmişdir. SOCAR Polymer tərəfindən YSPE-nin ilk satışı 2019-cu ilin aprelində reallaşmışdı.

**Rüblər üzrə satış 2020 (ton)**




SOCAR Polymer həm avtomobil yolu, həm dəmiryolu, həm də dəniz yolu ilə ixrac edir. Bu ilin iyul ayında 1020 ton BİPP-in HB0322BF növü Rusiyaya gedən yeni bir marşrut xətti ilə ADY Express dəmiryolları tərəfindən Qazaxıstana ixrac edildi.

## Yerli Satışlara Baxış

Daxili satışlar 3-cü rübdə ümumi satışların 19,5% -ni təşkil etmişdir.

**Yerli satışlar və ixracat nisbəti, R3 2020**




Rüblük yerli satışların toplam həcmi 2019-cu ildə dəyişərək 556 tondan (1-ci rüb) 1900 tona (2-ci rüb) yüksəlmiş və daha sonra 1241 tonadək (4-cü rüb) azalmışdır. 2020-ci ilin 2-ci rübündə yerli satışlarda görünməmiş bir artım (7144 ton) müşahidə edildi. Üçüncü rübdə yerli və xarici satış nisbəti əvvəlki rübdəki 1: 8-dən 1: 5-ə (rüblük satışların toplam həcminin 20% -i) doğru müsbət istiqamətdə dəyişdi.

**Rüblük yerli satış dinamikası, 2019-2020 (ton)**




Bu arada, yerli satışların ümumi satışlardakı payı 2020-ci ilin yanvarından sentyabrına qədər davamlı olaraq artmağa davam etmişdir. Xüsusilə, məhdud sərhədyanı ticarət şəraitində yerli müəssisələrin polimer xammalı ilə təmin olunması bizim prioritetimiz olmuşdur.

**Rüblük yerli satış dinamikası (ümumi satışın %-lə)**




Yerli satışlar 2019-cu ildəki illik 5326 tondan, demək olar ki, 3 dəfə artaraq 2020-ci ilin yanvar-sentyabr ayları üçün 15202 tona çatmışdır. Yerli satışın ixracata nisbəti 1:16-dan (2019-cu ildə) 1:8-ə (1 oktyabr 2020-ci il tarixində) dəyişmişdir.

**Yerli satışların ixracata nisbəti, sentyabr 2020 (ton)**




2019-cu ildə 24 fərqli yerli şirkət və 2 fiziki şəxs "SOCAR Polymer"dən PP almışdır. 2020-ci ildə yerli PP alıcılarımız arasında bu günə qədər 24 şirkət və 3 fiziki şəxs olmuşdur. Bu alıcılardan bəziləri 2019-cu ilə nisbətən 2020-ci ildə 10 qat daha çox PP almışlardır.

**PP-nin yerli alış həcmlərində artım (ton)**



13 fərqli yerli şirkət 2019-cu ildə "SOCAR Polymer"dən YSPE almışdır. 2020-ci ildə yerli YSPE alıcılarımız arasında bu günə qədər 23 şirkət və 2 fiziki şəxs vardır. Bu alıcılardan bəziləri 2019-cu illə müqayisədə 2020-ci ildə 20 qat daha çox YSPE almışdır.

**YSPE-nin yerli alış həcmlərində artım (ton)**




2019-cu ildə 31 yerli şirkətə və 2 fiziki şəxsə ümumilikdə 5326 ton polimer satıldı ki, bunun da ən böyük həcmi Meqa-Plastik MMC şirkəti tərəfindən alındı.

**PP/YSPE-nın yerli satışı, 2019 (ton)**




2020-ci ilin yanvar-sentyabr aylarında 35 yerli şirkətə və 3 fiziki şəxsə ümumilikdə 15012 ton polimer satılmışdır ki, bunun da ən böyük hissəsi Meqa-Plastik MMC, Ram BNT Ltd və Azertexnolayn MMC şirkətləri tərəfindən alınmışdır. Üçüncü rübdə bu ilk üç şirkətin payı, yerli polimer satışlarımızın 11,3, 9,2 və 9,1 %-ni təşkil etmişdir.

**PP/YSPE-nin yerli satışı, Yan-Sen 2020 (ton)**




Aşağıdakı şirkətlər 2019-cu illə müqayisədə 2020-ci ildə satın aldığı polimer həcmlərini xeyli artırmışdır:

**Yerli alış həcmlərinin artması, PP/YSPE (ton)**



# 2 ay ərzində həyata keçirilən planlı fasilə fəaliyyətləri

İstehsalat müəssisələrində texniki servisin aparılması üçün dövri olaraq bütün əməliyyatları dayandırmaq şərtilə fasilə etməyə ehtiyac olur. İldə bir dəfə planlı yoxlama və texniki servis aparmaq üçün fəaliyyətini dayandıran əsas xammal təchizatçımız- Azərikimya zavodunda da belədir. Bu səbəbdən SOCAR Polymer zavodu da bu cür işləri təqribən eyni dövr üçün planlaşdırır.



Bu il "SOCAR Polymer"in YSPE və PP zavodları da müvafiq olaraq 1 və 3 avqust tarixlərində planlı şəkildə dayandırıldı. Yeni olan və heç bir təmirə ehtiyac duymayan zavodumuzda fasilənin məqsədi, zavodların təhlükəsiz fəaliyyətini təmin etməsinə imkan verən profilaktik təmir, yeniləmə və təkmilləşdirmə işlərinin aparılmasıdır, eləcə də zavodların bütün sistemlərinin geniş yoxlanılması və ən son istehsal vasitələri, bilik və texnikalarını tətbiq edərək şirkətin rəqabət gücünü qorumasını təmin etməkdir.

Hər bir planlı dayanma geniş bir planlaşdırma, həmçinin əmək və materialların diqqətli koordinasiyasını tələb edir. Hər bir planlı dayanmanın vaxtı, digər şeylərlə yanaşı, bu müddət ərzində ortaya çıxan problemlərdən də asılı ola bilər. SOCAR Polymer, zavodların tam şəkildə istismara hazır olması üçün planlaşdırılmış müddətdə tələb olunan bütün işləri uğurla həyata keçirməyi Azərikimya zavodunun fəaliyyətə başlayacağı 1 oktyabr tarixinə qədər bacardı.

Standart dayanma, təhlükəli emal materiallarının və təsirsiz qazların çıxarılması kimi sistemlərin təhlükəsiz olmasına yönəlmiş işləri də əhatə edir. Sistemlər daha sonra təmizlənə bilər. Təmizlənmə özlüyündə başlanma, işləmə və bağlanma prosedurlarını tələb edən bir prosesdir.

Uğurlu və effektiv tətbiqetməni təmin etmək üçün planlı dayanma fəaliyyəti müvafiq qruplar tərəfindən bir il ərzində ətraflı şəkildə planlaşdırılmışdı. Şöbələr arasında bir çox əməkdaşlığı və fəaliyyətlərin koordinasiyasını əhatə edən böyük hazırlıq işləri görülmüşdü. Texniki servis, əməliyyatlar, planlama, İR, alış və təchizat zəncirinin idarə olunması, materialın idarə olunması, SƏTƏM və inzibati işlər komandaları sifariş vermək və ehtiyat hissələrini sahəyə çatdırmaq, həmçinin satıcı və podratçının vaxtında gəlişini təşkil etmək üçün yaxından çalışdılar.

Planlı fasilə istilik dəyişdiricilərin effektiv istismar müddətini uzatmaq üçün yoxlanılması və təmizlənməsini, görkəmli düzəldici tədbirlərin yerinə yetirilməsini, həmçinin əməliyyat xərclərini azaltmaq, bütövlüyü dəstəkləmək və avadanlıqların istismar qabiliyyətini artırmaq üçün hazırlanmış və dizayn edilmiş bir neçə dəyişiklik və təkmilləşdirmənin həyata keçirilməsini əhatə etdi. Bu fəaliyyətlərdən bəziləri "SOCAR"ın ciddi nəzarəti altında həyata keçirildi..

SOCAR Polymer komandası, Azərikimya müəssisələrinin azotla təmin etmək üçün zavodumuzdakı azot istehsalı qurğusundan yeni bir boru kəməri quraşdırılmasını da həyata keçirdi. Bu, Azərikimyada planlı dayanma zamanı avadanlıqların hazırlanması və təmizlənməsi üçün sərf olunan vaxtı azaltmağa kömək edəcək.

Ümumilikdə, bütün kateqoriyalar üzrə planlı dayanma əməliyyatları PP zavodu üçün 26000 adam-saat, YSPE zavodu üçün isə 27000 adam-saat təşkil etdi.

Planlı fasilə əməliyyatlarının əsas icraçısı zavodumuzun texniki servis şöbəsi idi. Rəhbərliyin qərarı ilə, digər texniki şöbələrdən olan bəzi işçilərə planlı fasilə müddəti boyunca mexanika komandasına işlərində kömək etmək və dəstəkləmək tapşırıldı.

Hər iki zavod 2020-ci ilin 4-cü rübündə uğurlu fəaliyyət göstərməyə tam hazır vəziyyətdədir.



# Karantin dövründə SOCAR Polymer əməkdaşlarının inkişafının təşkili

SOCAR Polymer şirkətinin rəhbərliyi son 6 ayda kollektivinin peşəkar inkişafını təmin etmək, eləcə də biznes mühitində rəqabətədavamlı kadr potensialını gücləndirmək etmək məqsədilə bir sıra təlimlər təşkil etmişdir. Bu təlimlər SƏTƏM və ingilis dili əsaslı olmaqla təchizatçı şirkətlərin təlim mərkəzlərində nəzəri və praktiki, daxili onlayn təhsil sistemində (Successfactors) nəzəri və onlayn video konfrans vasitəsilə həm nəzəri, həm də praktiki formada təşkil olunmuşdur. Xüsusilə də, planlaşdırılmış istehsalat fasiləsi ilə əlaqədar olaraq SOCAR Polymer şirkəti SƏTƏM-lə bağlı təlimlərə xüsusi diqqət ayırmışdır.



Karantin dövrü ərzində hər ay orta hesabla 50 işçiyə praktiki təlimlər və 20 işçiyə isə onlayn təlimlər təşkil edilib.

**Təchizatçı mərkəzlərində nəzəri və praktiki təlimlər**

SOCAR Polymer şirkəti COVİD-19 infeksiyasının yayılmasının qarşısını almaq və əməkdaşlarının sağlamlığını qorumaq üçün təlim mərkəzlərindən bir sıra qabaqlayıcı tədbirlərin həyata keçirməsini tələb etdi. Eləcə də, əməkdaşlardan da təhlükəsizlik qaydalarına ciddi riayət etmələri xahiş olundu.

SOCAR Polymer şirkətinin tələbi ilə təchizatçı şirkətlər tərəfindən aşağıdakılara riayət olundu:

1. Təlim mərkəzinin müntəzəm dezinfeksiyası
2. Maksimum 8 iştirakçının eyni qrupda olması
3. Sanitar-gigiyenik maddələrin təlim boyunca mövcudluğu
4. Təlimdən öncə sağlamlıq anketinin təmin olunması
5. Təlim ərzində sosial məsafənin qorunması
6. Fərdi mühafizə vasitələrinin və tənəffüs maskalarının daimi istifadəsi

Aprel ayı istisna olmaq şərtilə, 5 ay ərzində ümumilikdə 274 nəfər xarici təlim mərkəzlərində 7 müxtəlif təlimlərdə iştirak etmiş və müvafiq sertifikatlar əldə etmişdir.

| Ay | Təlimin adı | İştirakçı sayı |
|---|---|---|
| mart | Yüksəklikdə iş | 47 |
| | Ümumi və texniki ingilis dili | 55 |
| may | Yüksəklikdə iş | 37 |
| iyun | Yüksəklikdə iş | 14 |
| | Qapalı sahəyə giriş | 35 |
| | Takelaj və yükqaldırma(Başlanğıc) | 18 |
| iyul | Yüksəklikdə iş | 2 |
| | İlkin yardım | 6 |
| | Qapalı sahəyə giriş | 15 |
| | Təzyiqli qurğularda iş | 21 |
| avqust | Qapalı sahəyə giriş | 10 |
| | İlkin yardım | 10 |
| | İlkin yardımın əsasları | 5 |

Cədvəl 1. Xarici təlim mərkəzində keçirilmiş təlim və iştirakçıların statistikası

**Şirkətdaxili onlayn təhsil sistemində nəzəri təlimlər**

SOCAR Polymer şirkəti karantin dövründə daxili təhsil sistemi (Successfactors) vasitəsilə işçilərin müvafiq təlimlər alaraq zəruri biliklərə yiyələnməsini təmin etdi.

Karantin dövrü və planlaşdırılmış istehsalat fasiləsi ilə əlaqədar olaraq SƏTƏM üzrə əsaslı təlimlərə xüsusi diqqət ayrılmışdır. Belə ki, 42 nəfər aşağıdakı təlimləri uğurla tamamlamışdır:

| Təlimin adı | İştirakçı sayı |
|---|---|
| Qəza-xilasetmə, hadisənin məruzə edilməsi | 15 |
| İstivurma | 12 |
| Ofis təhlükəsizliyi | 15 |
| QMS ilkin təlimatlandırma | 16 |

**Xarici video görüntülü onlayn təlimlər**

Aprel ayından başlayaraq işçilərin ümumi və texniki ingilis dili biliyini artırmaq üçün onlayn dərslər təşkil olunmuşdur. Ötən 5 ay ərzində 80 nəfər işçimiz müvafiq səviyyələr üzrə ingilis dili biliklərini təkmilləşdirmişdirlər.

Bundan əlavə, mexanika mühəndisləri komandası "Vibrasiya təhlilinin əsasları", İR şöbəsinin əməkdaşları Amerikan Ticarət Palatasının təşkil etdiyi "Biznesdə çeviklik və İR-nın rolu", alış və təchizat zəncirinin idarə olunması şöbəsinin əməkdaşları isə Amerikan Ticarət Palatasının "Satınalmalar" iclasında iştirak etmişdir.

Beləliklə, şirkətimiz karantin məhdudiyyətlərinə və planlaşdırılmış fasiləyə baxmayaraq kollektivinin peşəkar inkişafına töhfə verməyə davam etmiş və hər bir işçisinin müasir əmək bazarının tələblərinə uyğun keyfiyyət və qabiliyyətlərə yiyələnməsinə bacardıqca kömək olmağa çalışmışdır. SOCAR Polymer şirkəti daima peşəkarlaşmağa can atan hər bir əməkdaşı ilə qürur duyur.

# Əməkdaşımızın **bir günü** onların gözü ilə

Səhər saat 9-da işə başladım. İlk iş olaraq komanda yoldaşlarımdan PP və YSPE zavodlarının mövcud statusu ilə bağlı maraqlandım. Onlar daima sahədə və idarəetmə otağındakı operatorlarla sıx əlaqədə olduqları üçün problem yarandığı təqdirdə xəbərdar olurlar. Adətən, problem olduğu təqdirdə bunu müzakirə edir, komandamızla birlikdə həll yollarını axtarmağa və tapmağa çalışırıq. Lazım olduqda isə texnologiyanın lisenziyarlarına müraciət edir və problemin qısa zamanda həllinə çalışırıq. Bugün belə bir hal ilə rastlaşmadım. Daha sonra elektron poçtumu yoxladım və birbaşa mənə ünvanlanmış elektron poçtları cavablandırdım. Məktubları qısa zamanda cavablandırmaq bəzən mümkün olmur, belə ki, bəziləri müəyyən təhlil tələb edir. Buna gündə ən azı 1-2 saat vaxtım gedir. Başqa qeyri-adi hadisə olmadığı üçün zavodda planlaşdırdığımız dəyişikliklərin necə yerinə yetirildiyini yoxlamaq və ümumi baxış keçirmək üçün sahəyə çıxdım. Ektruziya qurğusuna, nümunə götürmə məntəqəsinə və anbara baş çəkdim. Əksər hallarda gözümə hər hansı qeyri-adi bir şey dəydiyi halda geri qayıtdıqda e-mail vasitəsilə müvafiq şəxslərə və qruplara müraciət edirəm. Sahədə hər hansı yoxlanış aparıldıqda bizim komandanın nəzərdə tutduğu dəyişiklik baş verməlidirsə, işin icrası vaxtı bununla ya mən, ya da işdən məsul olan əməkdaşımız yaxından maraqlanır və lazım gəldikdə yerindəcə müdaxilə edir. Sonda hansı nəticələrin mənə göndərilməli olduğunu onlara bildirirəm. Bu nəticələr müqayisə aparmaq üçün bizim komandaya lazım olur. Bəzən cavab verə bilmədiyim suallar da olur ki, bu halda həmin texnologiyanın lisenziyarlarına müraciət edir və onlardan cavab əldə etməyə çalışıram. Belə bir halla bugün qarşılaşmadığım üçün sahədən ofisə qayıtdım. Texnologiya komandasının bir digər vəzifəsi də gələcəyə yönələn analizlər aparmaq və texnoloji yeniliklərin zavodlarımıza gətirəcəyi üstünlükləri analiz etməkdir. Gün ərzində ortalama 2-3 saatı bu tapşırığa ayırırıq və istənilən layihəni təhlükəsizlik baxımından analiz edirik. Məsələn, son olaraq qaz xəttinin çəkilməsini təhlil etmişik. Ofisdə geri qalan müddət ərzində bu və digər yenilikləri komanda yoldaşlarımla müzakirə etdim. Bundan əlavə, işimin bir hissəsi kimi standart əməliyyat proseduru (SOP) və təcili əməliyyat prosedurunun (EOP) hazırlanmasında iştirak etdim. Nəzərə alsaq ki, 200-dən çox bu tipli sənəd var və hər biri xüsusi əhəmiyyət daşıyır, işin icrası zamanı bu sənədlərə riayət olunması  işin təhlükəsiz və keyfiyyətli görülməsini təmin edir. Hər hansı dəyişiklik olarsa, bu sənədə əlavə edilir və növbəti əməliyyatlarda eyni hallarla rastlaşdıqda buna istinad edilir. Eləcə də, gün ərzində əməliyyat otağında olan komanda yoldaşlarımla tez tez əlaqə saxlayır, onlardan məhsulun tələb etdiyi şərtlərin (təzyiq, temperatur, keyfiyyət göstəriciləri) uyğun olub-olmaması ilə maraqlanıram. Nəzərə alsaq ki, gün sonunda hər bir markaya ad verilir, onların xüsusi spesifikasiyalara cavab verməsi əhəmiyyət kəsb edir. Bu səbəbdən də laboratoriyadan gələn nəticələri daima nəzərdən keçirirəm. Bu gün qeyri-adi bir şey baş verməyəcəyi halda işdən saat 17:00 çıxacağam.



**ORXAN HƏSƏNOV**
APARICI MÜHƏNDIS-TEXNOLOQ

> *Məsələn, son olaraq qaz xəttinin çəkilməsini təhlil etmişik. Ofisdə geri qalan müddət ərzində bu və digər yenilikləri komanda yoldaşlarımla müzakirə etdim.*

# İnkişaf yolum




**İSMAYIL ƏHMƏDOV**
KIÇIK SAHƏ MÜHƏNDIS-TEXNOLOQU

> *Avqust ayından etibarən istehsalat fasiləsi (TAR) dövründəki fəaliyyətlərin həyata keçirilməsində ilk təcrübəmi qazandım.*

Bu rüb peşəmi öyrənmək baxımından ən məhsuldar rüb olmuşdur. Bütün iyul ayı sahə operatorları ilə növbədə çalışdım. İstehsal dövründə sahə mühəndis-texnoloqlarının əsas rolu normal istehsal şəraitini qorumaq üçün paylaşdırılmış nəzarət sistemi (DCS), sahə operatorları, növbə rəisi və bölmə rəhbərlərinin əməkdaşlığı ilə istehsal prosesinin parametrlərinin nəzarətinə və tənzimlənməsinə kömək etməkdir. Hər hansı bir səhv olarsa, spesifikasiyadan kənar istehsalın və zəruri dayandırmanın qarşısını almaq üçün təcili tədbirlər görməliyik. Əgər zəruri dayanma qaçınılmazdırsa, zavod avadanlığının ciddi zərər görməsinin qarşısını almalı və zavodda təhlükəsiz iş şəraitini təmin etməliyik.

Bir çeşidin istehsalından digərinə keçid zamanı sahə mühəndis-texnoloqları, məhsulun əsas keyfiyyət göstəricilərinin verilən keyfiyyətə uyğun gəlməsini təmin etmək üçün həm əməliyyatlar (OPS), həm də texnologiya şöbəsi əməkdaşlarına kömək edirlər. Bizim vəziyyətimizdə isə, keçid zamanı diqqət yetirdiyimiz əsas parametrlər uyğun olaraq hidrogen konsentrasiyasından və TEAL / Donor nisbətindən asılı olan MFR (ərintinin axın sürəti) və XS (ksilen solventləri)-dir. Bu amillər nəzərə alınmazsa və ya səhvlik olarsa, əldə edilən polimerlər müştərilərin tələblərinə, çətin ki, cavab versin.

Avqust ayından etibarən istehsalat fasiləsi (TAR) dövründəki fəaliyyətlərin həyata keçirilməsində ilk təcrübəmi qazandım. Həmişə bütün zavodu dayandırmağın necə olduğunu düşünürdüm. Planlaşdırılmış istehsalat fasiləsi və texniki servis müddəti, köhnəlmiş və ya qırılmış avadanlıq hissələrinin istismar müddətinin sonunda dəyişdirilməsi üçün əlverişli bir zamandır. Müəssisənin effektiv bir şəkildə istehsal fasiləsini idarə etməsi, planlaşdırılmamış dayanma müddətinin azaldılması, əlavə iş vaxtının azaldılması və əməliyyatların daha səmərəli olması ilə nəticələnməlidir. Sahə mühəndis-texnoloqları nəinki istehsalat fasiləsi və təmir işləri zamanı, həm də buna hazırlıq mərhələsində kifayət qədər fəal iştirak edirlər. İstehsal zamanı işi pozulan avadanlıq və cihazlara texniki qulluq fəaliyyətləri ilə əlaqədar müxtəlif sənədlər və məlumatların hazırlanmasında qurğu rəhbərlərinə və digər qruplara kömək edirik. İstehsalat fasiləsində müxtəlif avadanlıqların köhnəlmiş hissələrinin dəyişdirilməsi və ya düzəldilməsi üçün sökülməsi onların daxili quruluşunu və incə hissələrini əyani şəkildə görmək və öyrənmək baxımından mənim üçün çox faydalı oldu. Bu cür məlumatlar universitetdə əldə edilmir və bu məlumatlar zavodların istismarı zamanı çox faydalı olacaqdır. “Kilidləmə” testləri zamanı mənim üçün tamamilə yeni olan zavodun paylaşdırılmış nəzarət sistemi (DCS) ilə tanış oldum. Vaxtımın çox hissəsini idarəetmə panelində keçirmək mənim özümə inamımı artırmağa kömək edəcək yeni qabiliyyət və biliklər qazandırdı. İndi zavodun yenidən işə başlamasından əvvəlki son hazırlıqları aparırıq. Zavodu etibarlı şəkildə işə salmaq və dayandırmaq bacarığı sahə mühəndis-texnoloqu üçün çox vacibdir və bu proseslərlə əlaqədar olan suallarıma cavab tapmaq üçün paylaşdırılmış nəzarət sisteminin (DCS) operatorlarının işini daha bir neçə həftə izləyəcəyəm.

Bundan əlavə, müxtəlif şöbələrdən olan bir çox işçilər ilə ünsiyyətdə olmaqla idarəetmə sahəsində də müəyyən irəliləyiş əldə etdim.

Bir sözlə, öyrənmək üçün hələ çox şey var. Zaman və təcrübə isə ən yaxşı müəllimlərdir.

# İnzibati dəstək- böyük qapıları açan kiçik açar

SOCAR Polymer istehsal müəssisəsi əməliyyatlar, proseslərə nəzarət, texniki xidmət, keyfiyyətə təminat, maliyyə və sairə kimi şöbələrdə toplanmış çox sayda insan tərəfindən idarə olunur, saz vəziyyətdə saxlanılır və fəaliyyəti təmin olunur. Bir qrup işçi vardır ki, onların oxşar vəzifələri vardır, lakin onların hər biri müxtəlif şöbələrə təhkim olunmuşdurlar. Bu işçilər qrup administratorlarıdır. Böyük maşında kiçik çarx kimi onların işinin də az əhəmiyyət kəsb etdiyi düşünülə və ya ümumiyyətlə əhəmiyyətsiz qəbul oluna bilər, lakin böyük təşkilatın düzgün qaydada işləməsi üçün olduqca həyati və vacibdir.

*Bu işin gözəl yanı monoton olmamasıdır. Belə ki, hər gün müxtəlif şeylər edirəm. Vaxtımı idarə etməkdə mahir olduğum üçün çətinliklərdən zövq alıram və işimlə bağlı hər şeyi sevirəm.*

**Biz onlardan öz hekayələrini danışmalarını və işlərini təsvir etmələrini xahiş etdik. Bu müsahibələr insana müsbət dəyişiklik etmək üçün liderlik tituluna ehtiyac duymadığını xatırladır. Necə ki məşhur ingilis atalar sözlərində deyildiki kimi "İşin böyüyü və ya kiçiyi yoxdur, sadəcə düşüncə tərziniz onu elə edir" və ya "Göyərçin kiçikdir, lakin vacib mesaj çatdıra bilər". Beləliklə, administratorlarımızla tanış olun və özünüz qərar verin.**

## Məryəm Talıbova
İR-ın inkişafı komandası



Qrup administratoru olaraq sənədləşmələrə nəzarət edib onların vaxtında imzalanmasını təmin edirəm. Eləcə də, işçilərlə bizim şöbə arasında əlaqə yaradıram, cünki bizim işimiz daima müxtəlif şöbələrlə əlaqədə olmağı tələb edir. Mən aylıq iş vaxtı cədvəllərini tərtib edib bütün şöbələrə göndərir, sertifikatların sona çatma tarixlərini izləyir və işçilərin illik müayinələrindən vaxtında keçmələrini təmin edirəm; tibbi sığorta tənzimləmələrini aparmaq üçün SAP sistemindəki yenilənmiş işçi siyahılarını yoxlayır, aylıq tibbi müayinə fakturalarını təsdiqləyir və lazım olduqda digər şöbələrə işçilər haqqında məlumat verirəm.

İş təcrübəm cəmi 3 ildir ki, bunun da 10 ayını qrup administratoru kimi çalışmışam. Qısa olduğuna baxmayaraq, bu müddət ərzində çox şey öyrənmişəm. İşin ən çətin yanı iş prosesinin fasiləsiz axınını təmin etmək məqsədilə başlanğıcda böyük həcmdə informasiyanı qısa müddətdə öyrənməyim olmuşdu. Bu müddətdə mən daha da diqqətli oldum və mənim üçün yeni bacarıq olan SAP proqramında işləməyi öyrəndim.

Bu işin müsbət tərəfi monoton olmamasıdır. Belə ki, hər gün müxtəlif şeylər edirəm. Vaxtımı idarə etməkdə mahir olduğum üçün çətinliklərdən zövq alıram və işimlə bağlı hər şeyi sevirəm. İnanıram ki, işimin tələbləri və şəxsi keyfiyyətlərim üst üstə düşür və bir-birini tamamlayır. Beləliklə, dəyişməyə və ya uyğunlaşmağa ehtiyac yoxdur. Administrator olmaq dəqiq və məsuliyyətli olmağı, işi vaxtında görməyi, sənədlərlə işlədiyimiz üçün təfərrüatlara fikir verməyi tələb edir. Ünsiyyətcil olmaq işçilərlə axıcı rabitə qurmağa kömək edir. İşimin 60%-i elektron poçt yazışmaları da daxil olmaqla ünsiyyət və danışıqlar aparmağı tələb edir. İR şöbəsinin nümayəndəsi kimi bütün şöbələrlə əlaqədə oluram, ələlxüsus mühasibat və alış və təchizat zəncirinin idarə olunması şöbələri ilə. Şöbəmizdə 20 nəfər var və gün ərzində onların yarısına işlərində kömək edirəm. Mənim tabeliyimdə olan işçi yoxdur. Mən məzuniyyətdəyəmsə, həmkarlarım məni əvəz edə bilər, lakin bu onların gündəlik işlərindən xeyli vaxt ayırmalarını tələb edir.

Nadir hallarda hər hansı bir xüsusi çətinliklərlə qarşılaşıram. İşçilərin tibbi müayinə tarixi dəyişsə çətinlik ortaya çıxa bilər, amma bu düzəldilə bilər: müzakirə etmək və yeni bir tarix təyin etmək üçün məsul şəxslə əlaqə saxlayıram. Noutbukumun arxasında olmadığım zaman smartfon, əlaqə saxlamağa və lazımi dəstəyi təmin etməyə çox kömək edir.

"SOCAR Polymer"də işləməyin ən çox sevdiyim tərəfi dostluq, dürüstlük və qarşılıqlı məsuliyyət hissinin yaratdığı mühitdir. İşimi sevirəm və bu, hər gün uğurlu fəaliyyət göstərməyimə kömək edir.

Gələcəkdə kadr seçimi və işə qəbulla bağlı daha çox məlumat əldə etmək istəyirəm. İşə qəbul üzrə kiçik mütəxəssis kimi özümü sınamaq istəyirəm. Bəzən işə qəbul qrupunun işində iştirak edirəm və bu vəzifəni uğurla icra edəcəyimə inanıram.

Mövcud karantin məhdudiyyətlərini nəzərə alaraq, məhdudiyyətlərin tezliklə bitməsini istəyirəm ki, əvvəlki iş rejimimizə qayıdaq. Uzaqdan işin öz üstünlükləri var, lakin ofisdə işləməkdən daha məhsuldar ola bilməz. Komandada fiziki şəkildə işləmək daha xoşdur.

## Xalidə Rəhimova
### Biznes inkişafı və İctimaiyyətlə Əlaqələr komandası



Mənim işim əsasən SAP proqramında "satınalma tələbləri" və "Xidmət giriş vərəqələri" yaratmaq, satıcılar üçün ödənişləri izləmək, çap sifarişlərini etmək və bütün çap sifarişlərinin qeydini aparmaqdan ibarətdir. Əlavə olaraq, qeydiyyatını aparmaq şərtilə şirkət sənədlərini arxivləşdirirəm və VIP ofis dəftərxana ləvazimatı tələb etdikdə SAP-da sifariş yerləşdirirəm. Üstəlik, satıcılardan aktlar alındıqda, onları təsdiqləyirəm və menecerin imzası üçün təhvil verirəm. Hər ayın sonunda şöbə işçilərinin iş vaxtı hesabatını doldururam.

Əksərən, mühasibat və alış və təchizat zəncirinin idarə olunması şöbələri, eləcə də İR və nəqliyyat və inzibati işlər şöbələri ilə əlaqədə oluram. Biz maneəsiz informasiya axınını təmin etmək üçün şöbələrarası rabitə və koordinasiyanı inkişaf etdirmək məqsədilə yollar axtarırıq.

Administratorların vaxtında "Xidmət giriş vərəqələri" yaratması çox vacibdir. Əks halda, satıcılar vaxtında ödəniş əldə etmirlər. Bundan əlavə, administratorlar tapşırıqları vaxtında yerinə yetirmək üçün bütün "satınalma tələbləri"nin təsdiqini izləmələri lazımdır.

Peşəkar keçmişimə nəzər salsaq, ümumilikdə, tədbir təşkilatçılığında 11 illik iş təcrübəsinə sahibəm. Bunun 2 ilini administrator kimi işləmişəm. İndiki işimin ən çətin hissəsi SAP ERP sisteminin texniki cəhətlərini öyrənmək idi, amma hər zaman elektron sistemlərlə işləməkdən zövq almışam və çox sayda tanınmış sistemdə işləmişəm. Beləliklə, sənədlərə nəzarət kimi peşələri sevirəm və bu sahədə peşəkar şəkildə irəliləməyə davam etmək istəyirəm.

İşimdəki çətinliklər, əsasən vaxt tələb edən iş axını və daxili prosedurlardan xəbərsiz olduqları üçün ödəmələrin gecikməsindən şikayət edən satıcılarla bağlıdır. Bəzən bunu onlara izah etmək çətinlik yaradır.

Bir çox başqa işlərdə olduğu kimi, administratorlar da səbrli olmalı, son tarixədək işləri icra etməli, mütəşəkkil, dəqiq, təfərrüatlara diqqətlə yanaşmalı və ünsiyyətcil olmalıdır, çünki administratorlar insanlarla çox ünsiyyət qururlar. Əlavə olaraq, özünü motivasiya etmək hər gün işdə uğurlu olmağa kömək edir. Eləcə də, dəstəkləyici və mehriban bir mühitdə yaxşı komandada işləmək də belədir.

İşçilərinin qeydinə qalan SOCAR Polymer şirkətində işləməkdən zövq alıram.

## Səbinə Hüseynova
### Layihə komandası



İş günümdə şirkətimizin işini səmərəli və mütəşəkkil şəkildə davam etdirməsinə kömək etmək üçün müxtəlif fəaliyyət növlərini dəstəkləyən inzibati vəzifə və tapşırıqları yerinə yetirirəm.

"SOCAR Polymer"də işləməkdən zövq alıram, çünki müxtəlif mövzularda təcrübə qazana və bütün bu öyrəndiklərimi gündəlik işimə tətbiq edə bilirəm. İnsan işinin tələb etdiyi yeni bacarıqlara yiyələnir. Administrator kimi işləmək incəliklərə diqqət edən baxış tərzini formalaşdırmağa və müxtəlif vəzifələrin öhdəsindən gəlmək bacarıqlarını inkişaf etdirməyə kömək edir. İşimdə uğurlu olmaq üçün çoxsaylı iş axınlarını izləyə bilməli, etibarlı yaddaşa sahib olmalı və görülməli işlər siyahısında tapşırıqlara prioritet verməyi bacarmalıyam. Şəxslərarası bacarıq satıcılar ilə mənalı əlaqələr qurmağa kömək edir və kompüter bacarıqları vəzifə və məsuliyyətlərimin çoxunu inamla idarə etməyə kömək edir.

35 illik iş təcrübəmin 15 ilini administrator vəzifəsində olmuşam. "SOCAR Polymer"ə 2016-cı ilin fevralında qoşuldum. Mənə görə, başlanğıcda işin ən çətin tərəfi bütün vəzifələri vaxt itirmədən yerinə yetirmək idi. Komanda işində daha səmərəli olmağı öyrəndim və iclas protokollarını yazmaqda peşəkarlaşdım. Mükəmməlçi olduğumdan və işimi mükəmməl yerinə yetirməyi sevdiyimdən, proqram təminatları mənə çox əlverişlidir.

Layihəmizin inşası dövründə bütün IPMT üzvlərinə köməklik edirdim, hal hazırda təxminən 24 həmkarıma köməklik edirəm. Biz daha çox İR və mühasibat şöbələri ilə qarşılıqlı əlaqədə oluruq. Virus təhlükəsi səbəbindən indi çoxumuz evdən işləyirik.

*"İşimdə uğurlu olmaq üçün çoxsaylı iş axınlarını izləyə bilməli, etibarlı yaddaşa sahib olmalı və görülməli işlər siyahısında tapşırıqlara prioritet verməyi bacarmalıyam."*

İşimi sevirəm və Layihə Koordinatoru olaraq gələcək layihələrə dəstək verməyə davam etmək istərdim. Komanda qurma məqsədilə komanda təcrübəsini artırmaq üçün işçilərin bir günlük xeyriyyəçilik səyləri ilə könüllü ola biləcəkləri tədbirlər, həmçinin idman günləri və ya idman yarışları təşkil etmək istərdim.

## **Xanım İbrahimxəlilova**
## Əməliyyatlar komandası



Gündəlik işimin böyük bir hissəsi SAP sistemində satınalma tələbləri yaratmaq və çatdırılma və ödəmələrin izlənilməsini həyata keçirməkdir. Həm də aylıq iş vaxtı cədvəllərini doldururam, bütün müşayiətedici sənədlərlə birlikdə birdəfəlik formalar üçün imzaları toplayıram və tamamlanmış xidmətlər üçün xidmət giriş vərəqləri (SES) yaradıram.

İşimin maraqlı tərəfi bütün şöbələrlə ünsiyyətdə olmaq və gərgin iş mühitinin çətinliklərinin öhdəsindən gəlməkdir

İlk baxışdan asan görünsə də, bir administratorun işi bütün şöbələr arasında düzgün əlaqələndirmə və koordinasiya qurmaq baxımından vacibdir. Administratorlar işçilər arasında müvafiq məlumatların vaxtında dövriyyəsini təmin edirlər.

Hər bir iş kimi, mənim işimin də gündəlik müxtəlif insanlarla işləmək kimi çətinlikləri var ki, bu da gündəlik bir çox insanla iş görən biri üçün elə də asan məsələ deyil. İnsan təmkinli qalmalı və əhval-ruhiyyəsi yaxşı olmasa belə təmkinini qorumalıdır. İşimdə yaxşı işlədiyimə inanıram və artıq 3 ildir ki, “SOCAR Polymer”in qəbul şöbəsində bir il işlədikdən sonra şöbəni dəyişmişəm. İki vəzifənin ümumi bir çox xüsusiyyətləri var, məsələn, fərqli sorğularla müraciət edən bütün işçilərə kömək və dəstək verməyə hazır və istəkli olmaq. Səbir bu mövqedə uğur qazanmağın açarıdır. Həm də ağılı duyğulardan üstün seçməyi və təmkinimi saxlamaqla ünsiyyətcil olmağı öyrəndim. Təkcə əməliyyatlar komandasında təxminən 150 işçi var ki, onların bir çoxu sual soruşmaq və ya kömək üçün müraciət edirlər. Üstəlik, bütün şöbələrlə, xüsusən alış və təhcizat zəncirinin idarə olunması, mühasibat və İR ilə mütəmadi əlaqə saxlayıram. Bu cür gərgin iş rejiminə və istirahət üçün təbii ehtiyaca

> *Hər bir iş kimi, mənim işimin də gündəlik müxtəlif insanlarla işləmək kimi çətinlikləri var ki, bu da gündəlik bir çox insanla iş görən biri üçün elə də asan məsələ deyil.*

baxmayaraq, məzuniyyətə çıxmağı sevmirəm, çünki işimi çox sevirəm və burada özümü evimdəki kimi çox rahat hiss edirəm. Bəlkə də, bu səbəbdən heç bir zaman fərqli bir vəzifəyə yüksəlməyi düşünməmişəm, baxmayaraq ki, əvvəllər bir satış meneceri kimi təcrübəm olduğu üçün alış və təhcizat zəncirinin idarə olunması komandasına qoşulma imkanım var. Amma olduğum yerdən razıyam və karyeramda dəyişiklik etməyi hələ ki planlamıram.

“SOCAR Polymer”də işləməyin ən cəlbedici yanı işçi heyətin və insanların səmimi olmasıdır, Əlverişli iş saatları və servis avtobusları ilə yaxşı gediş-gəliş imkanlarını hələ heç vurğulamıram. Mən burada işləməkdən zövq alıram.

## **Günel Rzayeva**
## Təchizat və alış zəncirinin idarə olunması komandası



Gündəlik olaraq daha çox alıcılar arasında “satınalma tələbləri” (PR) paylayır və təyin edirəm, Eləcə də, müntəzəm hesabatların hazırlanmasına kömək edir, iclaslar təşkil edir, planlaşdırır və iclaslarda iştirak edir, təqvimi formalaşdırır və s. kimi işləri yerinə yetirirəm. Şəxsən mən SAP sistemində işləməyi və alıcılar arasında satınalma tələblərini (PR) təyin etməyi sevirəm. satınalma tələblərinin vaxtında təyin edilməsi zavodları lazımi tədarük və xidmətlər ilə təmin edir ki, bu da vacib bir prosesdir və bu işdə mən əsas şəxslərdən biriyəm. Mənim fikrimcə, müvəffəqiyyət qazanmaq üçün bir administrator problemi həll etmək, vaxtdan düzgün istifadə etmək, komandada işləmək və ünsiyyət bacarıqlarına malik olmalı, həmçinin təfərrüatlara diqqət yetirməyi bacarmalıdır. 12 illik iş təcrübəmin cəmi 9 ayını administrator vəzifəsində çalışsam da, işi bəyəndim. Satınalma prosedurları və iş axını haqqında, hətta zavodun fəaliyyəti barədə çox şey öyrəndim. Bunun ən çətin hissəsi zavod terminologiyasına hakim olmaq idi. İşimdəki bəzi digər çətinliklər əsasən texniki məsələləri əhatə edir, lakin bu nadir hallarda olur. Alış və təchizat zəncirinə nəzarət (PSCM) komandası davamlı olaraq mühəndislik və texniki xidmət, materialların idarə olunması (MM) və əməliyyatlar (OPS) şöbələri ilə əlaqə qurduğu üçün ünsiyyət bir administratorun işinin əsas hissəsidir. Bizim şöbə və alt qruplarımızda, ümumilikdə, 44 nəfər var və mən gün ərzində 15-20 həmkarıma həm müntəzəm, həm də istəkləri əsasında köməklik edirəm. Administrator işinin bu qədər gərginliyini nəzərə alaraq, inanıram ki, iş axını elə bir tərzdə formalaşdırılmalıdır ki, bir administrator məzuniyyətdə olduğu zaman vəzifələrin təhvil verilməsi asan olsun. Mənim fikrimcə, yoxluğunuzun təsirini minimuma endirmək üçün bir sıra tədbirlər görmək peşəkarlığa işarədir.

Alış və təchizat zəncirinin idarə olunmasına (PSCM) marağım bu sahəni öyrənməyimə səbəb oldu və daha çox işi görə bilmə bacarığımı nümayiş etdirməkdə müvəffəq oldum. Kiçik satınalma mütəxəssisi vəzifəsinə təyin olunma qərarım yoldadır və buna görə çox xoşbəxtəm. Mən, ümumiyyətlə, davamlı inkişaf və yeni biliklərə üstünlük verən biriyəm və administrator olmağım məni daha böyük nailiyyətlər qazanmağa ruhlandırdı.

Komandamda işləməkdən zövq alıram. SOCAR Polymer heyəti çox səmimi, yardımsevər və əlçatan olması ilə öyrənmə və inkişaf üçün əlverişli mühit yaradır. İndi işimizi və həyatımızı çətinləşdirən tək şey, tezliklə ehtiyac qalmayacağına ümid etdiyimiz karantin məhdudiyyətləridir.

## Farah Sanai
Texnologiya komandası



Gün ərzində iş vaxtım ümumiyyətlə, ümumi iş axınından, komandamın istəklərindən və şöbəmizlə başqaları arasındakı qarşılıqlı əlaqədən asılı olan tapşırıqları icra etməyə sərf olunur. Bu vəzifələrə SOP-lərin (prosedurların) formatlaşdırılması, çap edilməsi, imzalanması və QMS-ə yüklənməsi, lazımi hesabatların hazırlanması, digər şöbələrlə işin koordinasiyası, iclaslarda iştirak, gözlənilməz məsələlərin həlli, satınalma tələblərinin (PR) yaradılması, rezervasiyalar, iş vaxtı cədvəllərinin doldurulması, proses mühəndisləri üçün növbə cədvəllərinin hazırlanması və s. daxildir.

Bir şirkətin işini və iş axışını böyük bir tapmaca kimi təsəvvür edirəm və düşünürəm ki, boşluqları və əlaqələri təmin etməkdə administratorların rolu çox böyükdür. Məsələn, həmkarlarımın vaxtlarına qənaət edirəm ki, prioritetlərinə diqqət yetirsinlər və dəstəyimə hər zaman güvənə biləcəklərini bildikləri üçün rahat olsunlar. Administratorlar əşyaları və prosesləri şöbə daxilində və şöbələr arasında mütəşəkkil qaydada saxlayırlar. Buna görə də, administrator hesabat və digər tapşırıqları vaxtında yerinə yetirmək üçün məsuliyyətli, kooperativ, mütəşəkkil və səmərəli olmalıdır.

Peşəkar karyerama 5 ildir ki başlamışam və bunun yalnız son bir ilində administrator kimi işləyirəm. Hər zaman yeni işdə uğur, yeni yerə və ya yeni vəzifəyə uyğunlaşmaqdan asılıdır. Üzərinizdəki məsuliyyət yükünü dərk etmək ilk PR və ya hesabatınızda səhv etməklə bağlı narahatlığı tətikləsə də, zaman və təcrübə uğur gətirir. "SOCAR Polymer"ə qoşulmağımla bərabər SAP sistemində işləmək bacarığını qazandım ki, bu işimin maraqlı tərəfidir. Bütün tələblərin fərdi, peşəkar, sürətli, şəffaf, rahat və etibarlı şəkildə işlənməsində şöbələrarası qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün lazımlı bir sistemdir. İşimdəki çətinliklərdən danışarkən mühəndislik terminlərinin istifadəsindən bəhs etməmək olmazdı. İstifadə olunan mürəkkəb terminologiya səbəbindən bəzi hesabatları hazırlamaq çox vaxt və səy tələb edirdi. Ancaq komandam çox kömək oldu və indi hər şey aydındır. İşimdə çap işinin həcmini dəyişmək istərdim, çünki daha az kağız israf etməyimizi və təbiəti mümkün qədər qorumağımızı istəyirəm.

Bu iş mənə səbrli olmağı və komandada işləmə bacarığını öyrətdi, belə ki, əvvəllər müstəqil işləməyə üstünlük verirdim. Mühəndis-texnoloq komandası 11 nəfərdən ibarətdir və əməliyyatlar komandası ilə, eləcə də, laboratoriya, NÖC, SƏTƏM komandaları və İR şöbəsi ilə yaxından əməkdaşlıq edir.

Karyera planlarım vaxtı düzgün idarə etmək və davamlı inkişaf etməklə cari işimdə irəliləməkdir. Zavodun uğurla fəaliyyət göstərdiyini görmək bu hədəfə gündəlik töhfənizdə böyük bir geri dönüşdür. Mütəxəssislərlə bir qrupda işləmək əvəzsiz bir təcrübədir. Əvvəlki işlərdən çox fərqli olan bu iş karyera yoluma müxtəliflik gətirdi.

## Ülkər Qurbanəliyeva
İT komandası



Mənim vəzifələrimə SAP istəkləri ilə işləmək, İT texniki dəstəyin və şəbəkə və sistem administrator komandalarının işlərinin koordinasiyası, şəbəkə və İT şöbəsi daxilində sənəd axınının tənzimlənməsi və s. daxildir.

SOCAR Polymer daxilində uyğun bir rabitə şəbəkəsi yaratmaq həqiqətən də maraqlıdır. SOCAR Polymer ailəsini hər gün daha yaxşı birləşdirməyə kömək edən gündəlik ünsiyyət rejimimdən zövq alıram. Ancaq bəzi günlər olduqca yorucu ola bilər. Şöbəmizdə 19 nəfər var, inanıram ki, gün ərzində hamısına dəstək verdiyimi söyləməklə mübaliğə etmiş olmayacağam. Bəzən çoxlu sayda tapşırığı yerinə yetirmək üçün əlavə bir neçə əllərim olmasını istəmirəm deyil. Bütün işlərin hamısı təcilidir, işimdə yaşadığım tək çətinlik budur. Kiçik İT dəstək koordinatorumuz Rəhiməxanım Şirinova və şəbəkə idarəçisi köməkçisi Fəridə Bayramova mənə işlərimdə çox kömək edirlər. Məzuniyyətdə olanda işimi əsasən Rəhiməxanıma təhvil verirəm.

Administrator komandanı təmsil edir və gündəlik əməliyyatların koordinasiyasını və performansını təmin etmək üçün onu şirkətlə əlaqələndirir. Administrativ işlərin təxminən 80% -i bu və ya digər halda ünsiyyət ilə əlaqədardır. Uğurlu bir administrator səbirli, pozitiv olmalı və mükəmməl vaxt idarəetmə bacarıqlarına sahib olmalıdır. Bu iş mənə səbirli olmağı öyrətdi.

6 ildən artıq iş təcrübəm var və bunun təqribən 2 il yarımını administrator olaraq çalışmışam. İşimi sevirəm və bu iş gündəlik stresi aradan qaldırmağa kömək edir. Hər işə müsbət yanaşma tərzim də əvəzolunmaz yardımçımdır. Şəxsi keyfiyyətlərimin fəaliyyətimə təsir göstərməyi ilə yanaşı, bir çox vərdişlərim işlədiyim müddət ərzində formalaşdı.

İT komandasının administratoru olmaqla yanaşı SAP dəstək komandasının üzvü olaraq "SOCAR Polymer"dəki bütün şöbələrlə sıx əməkdaşlıq edirəm. SAP sistemi ilə işləməyi çox yaxşı bacarıram. Həmçinin, gələcək layihələrə daha yaxşı uyğunlaşmaq üçün peşəkar idarəetmə bacarıqlarımı artırır və təhsilimi davamlı olaraq təkmilləşdirirəm.

Mən öz komandamı çox sevirəm və bu şöbədə çalışdığım üçün özümü şanslı hesab edirəm. Daha yaşıl mənzərəli yeni ofis binamızı səbirsizliklə gözləyirəm.

**Natəvan Məmmədova**
SƏTƏM komandası



> *İstehsal proseslərini təhlil etmək, hər bir avadanlıq və maşının necə işlədiyini, proseslərin bir-birinin ardınca necə getdiyini, proses və ya istehsal baxımından hər mərhələdə tələblərin nə olduğunu və s. görməyə həvəsim var.*

Hər gün işə gələrkən ilk etdiyim şey elektron poçtumu yoxlamaq olur. Poçta və məlum prioritet tapşırıqlara əsasən, gündəlik etməli olduğum işlərin siyahısını hazırlayıram. Bu, mənə vaxtımı səmərəli istifadə etməyə kömək edir və nəticə əldə etməyimin dəyərini artırır. Siyahıdakı tapşırıqların prioriteti, SƏTƏM perspektivindən işlərin şirkət üçün əhəmiyyəti və şirkətə təsiri əsasında müəyyən olunur.

Sonra gündəlik hesabatı hazırlayır və müvafiq şəxslərə çatdırıram. Bundan əlavə, hər bir qrup administratoru kimi gün ərzində satınalma tələbləri hazırlayır və onları izləyir, PM (zavoda texniki baxış) iş sifarişlərini təsdiq edərək SES-lər (xidmət giriş vərəqələri) və GR-lar (malların qəbuledilməsi) yaradır, aylıq hesabatlar üzərində işləyir və SƏTƏM komandasına işlərində dəstək oluram.

"SOCAR Polymer"in əsas missiyalarından biri də şirkətdə profilaktik tədbirlər də daxil olmaqla təhlükəsiz mühit yaratmaqdır. Mən əsas fəaliyyət sahəsi açıq sahə olan SƏTƏM komandasının administratoruyam. Komandam məndən ofisdə olmağı və fəaliyyətlərini dəstəkləmək üçün lazımi işlər görməyimi tələb edir. Onlara gündəlik, həftəlik və aylıq tapşırıqları yerinə yetirmələrinə kömək edərək, istehsal sahələrində və ofislərdə təhlükəsiz iş şəraitini maksimum dərəcədə artırmaq üçün nə etməli olduğumuzu görə bilirəm. Biz, həqiqətən də, təhülkəsizliyin uğurun təməli və sabitliyin dayağı olduğuna inanırıq.

Gün ərzində bir çox işçi ilə əlaqə qurmaq, bir komanda administratorundan həmkarları ilə əməkdaşlıq mühiti yaratmasını tələb edir. Beləliklə, komanda administratoru ünsiyyətcil, diqqətli, səbirli və dəqiq olmalıdır. İnsanlarla ünsiyyət qurmağı xoşladığım üçün komanda üzvlərimlə işləməkdən və onlarla ünsiyyət qurmaqdan, eləcə də qarşılıqlı dəstək verməkdən zövq alıram. Administrator sorğu ilə müraciət edən şəxsin kim olduğunu müəyyənləşdirmək üçün digər şöbələrin iş mexanizmi barədə anlayışa sahib olmalıdır. SAP-də işləmək bacarıqlarına sahib olmaq çox faydalıdır, çünki istəklərinizi izləyə və ya inventardan nəyin sifariş edildiyini, nəyin istifadə edildiyini və s.-ni göstərən bir hesabat çıxara bilərsiniz.

İşimin maraqlı bir tərəfi budur ki, bir zəncir kimi əlaqələndirilmiş şöbələr arasındakı qarşılıqlı əlaqəni, bütün iş dövrünün ayrı-ayrı nizamlı hissələrini və bir şöbənin nailiyyətinin başqa şöbədən asılı olmasını müşahidə edə bilirəm. Bəyənmədiyim şey isə, hətta deyərdim nifrət etdiyim, gün ərzində 100 dəfə printerə tərəf gedib-gəlməkdir.

Gündəlik ünsiyyət və qarşılıqlı əlaqə problemsiz ötüşə bilməz və bəzən çox nadir hallarda digər şöbələrlə bəzi anlaşılmazlıqlar, bəzi çətinliklər olur. Bunun xaricində COVID-19 testləri kimi müəyyən fəaliyyətlərin təşkili və koordinasiyasını tələb edən qeyri-adi hallar və spontan fəaliyyətlər ortaya çıxa bilər. İnsan tez reaksiya göstərməli, hazır olmalı və vaxtında hərəkət etməlidir, çünki bəzi fəaliyyətlər çox vacib və risklidir.

Keçən yay universiteti neft və qaz mühəndisliyi ixtisası üzrə bakalavr dərəcəsi ilə bitirdikdən sonra, demək olar ki, iş təcrübəm yox idi. Beləliklə, bu mənim ilk rəsmi işim və iş təcrübəmdir. Artıq doqquz aydır ki, komanda administratoru rolunda işləyirəm. İlk işə başlayanda ən çox SAP sistemi ilə işləməkdə çətinliklərim oldu. Bu, mənim üçün tamamilə yeni bir təcrübə idi. Komanda yoldaşım Nigar uyğunlaşmağımda kömək etdi və böyük məmnuniyyətlə mənə çox şey öyrətdi. İndi gündəlik işimin 80% -ni SAP sistemində işləmək əhatə edir və SƏTƏM komandasından sistemə çıxışı olan tək şəxs mənəm. Bütün hesabatlara gəldikdə isə, onlar kompüterimin verilənlər bazasında saxlanır.

Xəyallarımın peşəsindən danışdıqda deyə bilərəm ki, hər zaman mühəndis olmağı arzulamışam. Dövlət Neft və Sənaye Universitetini bitirmişəm və Azərbaycan-Fransız Universitetində də olmuşam. "SOCAR Polymer"də mühəndis-texnoloq vəzifəsi universitet ixtisasıma ən yaxın olanıdır. Bu sənayedə karyera qurmaq üçün kimya mühəndisliyi üzrə magistr dərəcəsi almaq istərdim. İstehsal proseslərini təhlil etmək, hər bir avadanlıq və maşının necə işlədiyini, proseslərin bir-birinin ardınca necə getdiyini, proses və ya istehsal baxımından hər mərhələdə tələblərin nə olduğunu və s. görməyə həvəsim var.

Bu arada, peşəkar inkişafımda mənə kömək etmək üçün menecerim mənə administrator vəzifələrindən əlavə yeni tapşırıqlar verir. Əvvəlcə, bu, mənim üçün biraz çətin idi, amma menecerim bacarığıma və potensialıma inanır.

**İlhamə Əlizadə**
Mühəndislik və texniki servis komandası



Mənim gündəlik vəzifələrim: SAP sistemində bütün satınalma tələblərini (PR), xidmət giriş vərəqəsini (SES), malların qəbuledilməsi və rezervasiyaları yaratmaq; materialın idarə olunması komandası ilə kataloqlaşdırmaq üçün material tələb formaları yaratmaq və materialların anbarda olmasını izləmək; tələb olunduğu halda qrup rəhbərləri ilə planlaşdırılmış istehsalat fasiləsini dəstəkləmək; üçüncü tərəf satıcıların əməliyyat zonasına və ya ofisə girişlərini qeyd etmək; komandamın tətil planını hazırlamaq və iş vaxtı cədvəllərini, əlavə iş saatlarını və istirahət günlərini doldurmaq; gündəlik və həftəlik hesabatları texniki servis üzrə planlama qrupuna təqdim etmək; ofis hərəkətləri, kompüter və telefon quraşdırılması və ya laptop təchizatı daxil olmaqla yeni işə götürmədə və ya müqavilə yatarmaqda dəstəyi təmin etmək; görüş, təlim, səyahət və tibbi müayinə təşkil etmək; proqram təminatı, şəbəkə, qrafik dizaynı, çap və çertyoj işlərinə texniki dəstək vermək; veb serverlərin məlumatların idarə edilməsini və qeydlərin saxlanılmasını, fayl və arxiv saxlama sistemlərinin saz vəziyyətdə saxlanılmasını təmin etmək; və s-dir.

Bizim şöbədə administratorun rolu digər şöbələrlə qarşılıqlı əlaqəni asanlaşdırmaq və bütün işlərin bir nəfər tərəfindən izlənərək bütün komandaya uyğunlaşdırılmasından ibarətdir. Bu müddətdə çertyojları necə oxumağı öyrənirəm və materiallar haqqında çox məlumat əldə edirəm. İnsan öz işini sevərsə heç bir şey çətin və ya qeyri-mümkün olmaz. Bununla birlikdə, bir administrator, səbrli olmaq, fəaliyyət sahəsinə maraq göstərmək və öyrənmək və inkişaf etmək istəyinə sahib olmaq kimi tələblərə cavab verməlidir.

4 illik iş təcrübəsinə sahibəm. Təxminən bir il əvvəl 2019-cu ilin avqust ayında qrup administratoru vəzifəsini icra etməyə başladım və ilk vaxtlar təxminən 130 nəfərdən ibarət komandada yeganə qadın olmaq qeyri-adi idi. Nəzərinizə çatdırım ki, şöbəmiz şirkətin ən böyük bölmələrindən biridir. O vaxtdan bəri, qrupumuz bu günə qədər ikisi qadın olmaqla təxminən 140 işçiyə qədər böyüdü.

*„Bu iş mənim ünsiyyət bacarıqlarımın inkişafına müsbət təsir etdi və məni daha ünsiyyətcil bir insana çevirdi, çünki bir administratorun ən çox etdiyi şey ünsiyyətdir."*

Bu iş mənim ünsiyyət bacarıqlarımın inkişafına müsbət təsir etdi və məni daha ünsiyyətcil bir insana çevirdi, çünki bir administratorun ən çox etdiyi şey ünsiyyətdir. Komandamız alış və təchizat zəncirinin idarə olunması və materialın idarə olunması şöbələri ilə sıx əməkdaşlıq edir və fəaliyyətlərin düzgün koordinasiyası üçün daim qarşılıqlı fəaliyyət göstərir. Gündəlik işimlə neçə həmkarımın fəaliyyətini dəstəklədiyimi də dəqiq deyə bilmərəm: Vəzifədən asılı olaraq bir çoxunu fərqli dərəcədə dəstəkləyirəm. Buna görə də məni əvəzləmək çətindir və tətilə getmək problemdir. Bu həllini gözləyən bir məsələdir. Bu işin bütün çətinliklərinə baxmayaraq, menecerim və həmkarlarım o qədər xoşdur ki, bu müsbət mühit məni ruhlandırır və günün sonunda yorğunluqdan xilas edir. Müsbət mühitdən əlavə, "SOCAR Polymer"də işləməyi sevməyimin əsas səbəbi yerləşdiyi yerdir.

Administrator işləməyim məni daha çalışqan və səmərəli etdi, çünki tapşırıqları daha sürətli yerinə yetirməyi öyrəndim. İrəliyə baxanda alış və təchizat zəncirinin idarə olunması və ya materialın idarə olunması kimi şöbələrdə mənim marağımı cəlb edəcək daha çox öyrənmə və karyera imkanları görə bilirəm. Daha peşəkar və bacarıqlı işçi olmaqda qərarlıyam.

## Nigar Nağıyeva
İnzibati işlər komandası



İş günümə prioritetləri təyin etmək və təcili həyata keçirilməli olan şeylərə diqqət yetirmək üçün tapşırıqları qiymətləndirməklə başlayıram. İşim saysız-hesabsız telefon danışıqlarını aparmağı, e-poçt yazışmalarını davam etdirməyi, gündəlik cədvəl hazırlamağı, SAP proqramından fasiləsiz istifadə etməyi və s. tələb edir. Bütün bunları dəqiq və səbirlə etməyə çalışıram. Sonra gündəlik işlər siyahısını tərtib edirəm və “Təşkil etmə” və ya “Dosyalama” fəaliyyətlərinin vaxtı barədə qərar verirəm.

İşimin ən maraqlı tərəfi, komandanın vəzifələrini idarə etməsinə kömək etmək, müxtəlif insanlarla ünsiyyət qurmaq, daha çox bilik və bacarıq qazanmaq, bütövlükdə iş və xüsusən kimya sənayesi haqqında öyrənməkdir. Komanda işinin hər bir hissəsində iştirak etməyi sevirəm. Mənim fikrimcə, administrator istənilən biznes senarisində əsas rol oynayır və səriştəli olmaq, korporativ fəaliyyətlərin düzgün aparılmasını hədəfləyən çətin bir işdir. Buna görə də, administrator yaradıcı olmalı, təfərrüatlara diqqət yetirməli, missiya təyin etməyi bacarmalı, vaxtı ağıllı idarə etməli və yaxşı tədqiqat və ünsiyyət bacarıqlarına sahib olmalıdır. Strateji baxış və mürəkkəb vəziyyətləri idarə etmək qabiliyyətini heç demirəm. İnanıram ki, sadəcə liderlərin böyük mənzərəni görməsi və strateji düşünməsi deyil, həm də administratorların təfərrüatlara diqqət yetirməli və komandalarının bütün fəaliyyətlərindən xəbərdar olmaları lazımdır. İstənilən işin onu icra edən üzərində təsiri var. İş keyfiyyətiminin yaxşılaşdırılması müntəzəm özünü analiz və öz-özünü qiymətləndirmə tələb edir.

İşimdə qarşılaşdığım bəzi çətinliklər arasında bir sıra işçilərin müxtəlif vəziyyətləri həll etməkdə əhəmiyyətli olan ünsiyyət bacarıqlarına sahib olmaması və digər müvafiq kompyuter bacarıqlarını öyrənmək və inkişaf

*Mənim fikrimcə, administrator istənilən biznes senarisində əsas rol oynayır və səriştəli olmaq, korporativ fəaliyyətlərin düzgün aparılmasını hədəfləyən çətin bir işdir.*

etdirmək maraqlarının olmaması vardır.

Beş illik iş təcrübəsinə sahibəm və bunun iki ilini administrator olmuşam. Bu vəzifədə alış və təchizat zəncirinin idarə olunması, büdcə və nəzarət, materialların idarə olunması və SƏTƏM şöbələri ilə sıx əməkdaşlıq edirəm. İş əlaqələrimi yaxşılaşdırdığını düşündüyüm üçün 5 nəfərlik komandam xaricində də hər hansı bir həmkarıma kömək və dəstək verməyi vacib hesab edirəm. Məzuniyyətdə olanda bəzən fövqəladə hallarda komandama uzaqdan kömək edirəm. Tezliklə özümü fərqli bir vəzifədə təsəvvür etmirəm.

“SOCAR Polymer”də işləməyi ən çox sevdiyim tərəfi komanda ruhunun olması, həmkarlar ilə sıx əməkdaşlıq, geniş biliklərə sahib və sizə hər an kömək etməyə hazır insanların əhatəsində olmaqdır. Həmçinin, bu şirkət geniş imkanlar təklif edir.

## "SOCAR Polymer"in inzibati dəstək komandasi












# Peşəkar inkişaf məqsədlərinə nail olunmuşdur

## SHRM (İnsan Resurslarının İdarə edilməsi Cəmiyyəti) sertifikatının əldə olunması

SHRM CERTIFIED PROFESSIONAL



7 aylıq təhsildən sonra İR informasiya sistemləri üzrə məsləhətçimiz Alina Eyyubova 2020-ci ilin 21 avqustunda SHRM sertifikatlı peşəkar (SHRM-CP) olmaq üçün lazım olan 5 saatlıq imtahandan uğurla keçdi. SHRM sertifikatlı şəxs siyasət və strategiyaları həyata keçirən, işçilər və maraqlı tərəflər üçün İR xidmətləri təqdim edən və operativ İR funksiyalarını yerinə yetirən İR üzrə mütəxəssisdir. İmtahanın təşkili və bu adın verilməsi İnsan Resursları İdarəetmə Cəmiyyəti tərəfindən aparılır. SHRM BoCK (Səriştə və Bilik Qurumu) 8 davranış səriştəsini üç qrupa ayırır: liderlik, şəxslərarası əlaqə və biznes. Əlavə olaraq, SHRM BoCK, İR biliklərinin 15 sahəsini üç domen üzrə təsnif edir: insanlar, təşkilat və iş yeri. SHRM kurslarını bitirməklə əldə olunan biliklər ən yaxşı beynəlxalq təcrübəni İR proseslərinə gətirir.

## CPIM (İstehsal və İnventarlaşdırma İdarəetmə sertifikatı) sertifikatının əldə olunması

CPIM
CERTIFIED IN PRODUCTION AND INVENTORY MANAGEMENT

Baş istehsal planlaşdırma mühəndisi Ziya Ağarəhimov və istehsal planlaşdırıcısı Rövşən Babayev CPIM sertifikatı əldə etmək üçün lazım olan iki imtahandan birincisini uğurla keçdilər. (PİM) proqramı beş moduldan ibarətdirş Bu modullar tələbin idarə olunması, tədarük və təchizatçı planlaşdırması, material tələblərinin planlaşdırılması, potensial tələblərin-in planlaşdırılması, satış və əməliyyat planlaması, əsas planlama, iş qabiliyyəti ölçmələri, təchizatçı münasibətləri, keyfiyyətə nəzarət və davamlı inkişafı ilə əlaqəli terminologiyanı, konsepsiya və strategiyaları öyrədir. CPIM, APICS (Amerika İstehsal və İnventarizasiyaya Nəzarət Cəmiyyəti) tərəfindən təmin edilən və PIM-də texniki və funksional bilikəri təsdiqləyən dünyada tanınan aparıcı bir sertifikatdır. 2018-ci ildə APICS ASCM (Təchizat Zənciri İdarəetmə Birliyi) ilə ortaq oldu.

Həm Ziya, həm də Rövşən fevral ayında proqrama müraciət etdilər və imtahanlara hazırlıq üçün fərdi hazırlıq üsulunu seçdilər. İlk imtahan PİM-in





ümumi metodları ilə bağlı idi. Keçid balı 350 üzərindən 300 idi. İkinci imtahan, məhsulların idarə edilməsi və planlaşdırılması, əməliyyatların planlaşdırılması və idarə edilməsi üzrə daha qabaqcıl metodlar haqqında olacaqdır. Rövşən proqramın üstünlüklərindən biri kimi bütün təchizat zənciri prosesi və əlaqəli departamentlər arasında proseslərin inteqrasiyası barədə daha yaxşı məlumat əldə etməsini vurğuladı. Bu arada Ziya fəaliyyətləri sistemli şəkildə təhlil edərək və öyrənilən metodlardan istifadə edib təşəbbüskar addımlar ataraq, fəaliyyətini xeyli dərəcədə yaxşılaşdıracağına əmindir.

SOCAR Polymer, işçilərinin davamlı təhsil, təlim və peşə inkişafı istəklərini dəstəkləyir. Yüksək təcrübə standartlarını əldə etmiş şəxslər digər komanda üzvlərini daha da inkişaf etməyə və böyüməyə sövq edir, beləliklə işçi heyətinin təcrübə səviyyəsini, rəqabət üstünlüklərini və bir işin ümumi dəyərini artırırlar.



# Fərqlənmə ilə məzun olmaq münasibətilə təbriklər




Mühəndis-texnoloqumuz Nizam Zahidli təhsilində qürurverici bir uğur qazandı və bunun sevincini bütün heyətimizlə bölüşmək istəyirik. Nizamın SOCAR Polymer şirkəti ilə ilk yaxın tanışlığı və təcrübəsi, 2017-ci ilin yayında şirkətin texnologiya şöbəsində təcrübəçi qismində çalışması idi. Bilik və bacarıqlarının nümayişi tezliklə onun tam ştatlı iş təklifi almasına səbəb oldu.

Nizam, işlədiyi müddət ərzində vəzifələrini yerinə yetirməklə yanaşı, gənc nəsillərin məktəb fənni kimi kimyaya, beləliklə də, bu sahədə təhsil və kimya sənayesində işləməyə marağını artırmağa yönəlmiş korporativ sosial və təhsil layihələrimizə də töhfə verməyi bacarmışdır.

Nizam, 2020-ci ildə Neft və qaz texnologiyaları ixtisası üzrə magistr təhsilini tamamladı. Nizam Zahidlinin magistr proqramını ortalama 85.84 balla başa vuraraq Bakı Ali Neft Məktəbinin neft və qaz texnologiyaları bölməsində ixtisas 1-cisi olduğunu elan etməkdən məmnunluq duyuruq. İlk üç yeri tutan məzunlarından digər ikisi isə 81.89 və 80.64 bal toplayıb.

SOCAR Polymer heyəti adından Nizamı bu uğuru münasibətilə təbrik edir və ona peşəkar inkişafında yeni zirvələr fəth etməsini arzulayırıq.

# Həmkarlarımız orduya dəstək təşkil edirlər





Qurtuluş müharibəsinə çevrilən əks-hücum əməliyyatları başladıqdan qısa müddət sonra, SƏTƏM Məsləhətçimiz Nəcəf Nəcəfov və daha 2 həmkarımız, PP zavod operatorları Elvin Aslanlı və Fəqan Məmmədov cəbhə xəttindəki ordumuza müxtəlif zəruri ləvazimatlar çatdırmaq üçün Ağcabədi və Ağdama getdilər. Təqdim olunan əşyalara isti yorğanlar, corablar, isti papaqlar, alt paltarları, pijama, banan və üzüm kimi qidalandırıcı meyvələr daxil idi. Şokolad və karbohidrat tərkibli qəlyanaltılar yaxşı enerji mənbəyidir və səngərlərdəki əsgərlərimiz ani aclığı aradan qaldırmaq üçün bu onlara çox lazımlı olacaqdır. Təxminən 300 manat dərmanlara, qanaxmanı dayandıran elastik bantlara və sarğılara xərcləndi. Təyinat yerinin aktiv bir döyüş bölgəsi və ya müdafiə xətti olmasından asılı olaraq, tələb olunan materialların siyahısı da dəyişdi. Cəbhədə hansı ləvazimatın lazım olduğunu öyrənmək üçün Nəcəf Nəcəfov münaqişə bölgələrindəki məsul zabitlərlə əlaqə saxlayır.

Təxminən 8500 AZN-lik ləvazimatı almaq üçün tələb olunan pulu SƏTƏM, anbar, laboratoriya, torbalama, əməliyyatlar və təchizat şöbələrindən olan həmkarlarımızdan təxminən 200 könüllü bağışladı. Bir həmkarımızın təşəbbüsü ilə onun digər şirkətlərdən olan dostları da ianəyə qoşuldu.

*Təxminən 8500 AZN-lik ləvazimatı almaq üçün tələb olunan pulu SƏTƏM, anbar, laboratoriya, torbalama, əməliyyatlar və təchizat şöbələrindən olan həmkarlarımızdan təxminən 200 könüllü bağışladı. Bir həmkarımızın təşəbbüsü ilə onun digər şirkətlərdən olan dostları da ianəyə qoşuldu.*

Nəcəfin növbəti səfəri Murovdağa oldu. O, 50 kq kərə yağı, 10 kq mal əti, 30 litr günəbaxan yağı, 2 kisə şəkər, 1200-dən çox siqaret qutusu, 10 kq qoz-fındıq, 15 əsgər çadırı (6 nəfərlik) və 7 xarici akkumulyator (power bank) apardı. Ona deyilənə görə bu cür ərzaqlar əsgərlər üçün tez-tez kiçik ətli piroqlar bişirən və təzə halvanı fətirlərə büküb xəndəklərə aparan kəndlilər tərəfindən istifadə olunacaq.

Ordumuza dəstək olmaq üçün bir çox həmkarlarımız həmçinin Silahlı Qüvvələrə Yardım Fondunun rəsmi bank hesabına könüllü ianələr köçürdülər.

# İnzibati işlər və təhlükəsizlik komandası görülən işlər barədə məlumat verdi

Təhlükəsizlik, Nəqliyyat, Əmtəə anbarı və İnzibati işlər qruplarından ibarət olan İnzibati işlər və təhlükəsizlik şöbəsi şirkətin gündəlik fəaliyyətinə bir çox cəhətdən dəstək verir. Bunlardan bəziləri şöbənin son zamanlarda görülən işlərə dair hesabatında təsvir edilmişdir. Fəaliyyətlərə daxildir:

- İstehsalat və ofis sahələrində gündəlik təmir və təmizlik işləri;
- Ofisin yenidən qurulması, planlaşdırılması və tikinti işləri;
- Podratçı qrupun gedişindən sonra otaqların yenidən paylanılması;
- Bakı ofisi çalışanlarının və onlara məxsus əşyaların Sumqayıt ofis binalarına köçürülməsi;
- Təhlükəli izobutan çənlərinin yanındakı 3 hektar ərazi də daxil olmaqla ümumilikdə 7 hektar ərazinin kol və ot sahələrindən təmizlənilməsi;
- Ərazidə 1500 ağac əkilməsi və mövsümi abadlıq işlərinin görülməsi;
- KT anbar ərazisində 490 metr uzunluqda 25x50 sm beton yastıqların yaradılması və çubuqların quraşdırılması;
- KT anbar ərazisində zavod və işçi ofisini ayırmaq üçün hasar tikilməsi (bu məqsədlə 402 metr beton tökülmüşdür);
- Torbalama sahəsini istismar sahəsindən ayırmaq üçün əməliyyat sahəsinin içərisinə 95 metr uzunluğunda hasar tikilməsi;
- Piyada keçidinin tikilməsi;
- Zavodun yeni girişinin tikilməsi;
- Soyunub geyinmə otaqlarının qarşısında və digər ərazilərdə təmir və bərpa işlərinin aparılması;
- Mart ayından etibarən və karantin müddəti boyunca, bütün otaqların antiseptik məhlullarla təmin edilməsi ilə birlikdə ərazinin gündə üç dəfə dezinfeksiya edilməsi;





Nəqliyyat qrupu isə aşağıdakı işləri həyata keçirmişdir:

- İşçilərin yaşayış yerlərinə daha yaxın ərazilərdən götürülməsi;
- Servis avtobuslarında təhlükəsizlik tədbirlərinə və qaydalarına riayət edilməsi;
- Şirkətin 800 işçisindən 500-ü gündəlik üç növbə ilə daşınması. Belə ki, marşrutlar hər gün Bakıda və Sumqayıtda, uyğun olaraq, 16 və 6 nöqtədən başlamışdır (07: 30-20: 00, 09: 00-17: 00, 20: 00-08: 00). Bu məqsədlə şirkət 18 avtobus icarəyə götürmüşdür;
- Mart ayından etibarən avtobusların gündəlik olaraq dezinfeksiya edilməsi;
- Evdən toplama nöqtələrinə olan məsafəni azaltmaq üçün toplama nöqtələrinin sayının artırılması;
- İşçilərin dövlət və hökumət qurumlarına, eləcə də digər təşkilatlara səfərlərinin təmin edilməsi;
- Şirkətin xarici qonaqlarının hava limanında qarşılanması və otellərə daşınması.







# **SOCAR Polymer** Qurban bayramında aztəminatlı ailələri sevindirdi

SOCAR Polymer Müqəddəs Qurban bayramı münasibətilə Qızıl Aypara Cəmiyyətinin Sumqayıt şəhər bölməsi və Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkil etdiyi xeyriyyə tədbirində iştirak etdi.

COVİD-19 təhlükəsi ilə əlaqədar olaraq karantin məhdudiyyətlərinin tətbiq olunduğu şəraitdə ahılların və aztəminatlı ailələrin əvvəlkindən daha çox dəstəyə ehtiyacı var. Bu baxımdan Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün bölmələrinin, üzvlərinin və könüllülərinin xidməti müstəsnadır. 30 iyul - 5 avqust arasında Qurban bayramı münasibətilə keçirilmiş bir sıra tədbirlərdə ümumi sayla təxminən 550 ailəyə bayram payı verildi. SOCAR Polymer şirkəti artıq 4 ildir ki, yaxından əməkdaşlıq etdiyi QAC Sumqayıt şəhər bölməsinin yardım çağırışını bu il də cavabsız qoymadı və Sumqayıt QAC-ın qeydiyyatında olan ahıl və bu qəbildən olan insanların süfrəsinə bayram sovqatı bəxş etdi.

SOCAR Polymer şirkətinin bu xeyriyyə tədbiri üçün ayırdığı maliyyə vəsaiti 137 ailəni əhatə etdi. Şirkətimiz iri supermarketlərdən biri ilə müqavilə bağlayaraq, qurban əti ilə yanaşı hər ailənin bayram süfrəsinə aşın da qoyulması üçün zəruri olan ərzaqlardan ibarət bayram sovqatları hazırladı. 3 avqust tarixində karantin vəziyyətinin bütün tələblərinə riayət olunmaq şərtilə təşkil olunmuş tədbirdə bayram sovqatı və qurban əti 137 ehtiyaclı ailəyə paylanıldı. Tədbirdə iştirak edə bilməmiş şəxslərin bayram payı isə evlərinə çatdırıldı.

Tədbirdə çıxış edən Sumqayıt QAC-ın sədri Mətanət Məhərrəmova bütün iştirakçıları Qurban bayramı münasibətilə təbrik etdi və SOCAR Polymer şirkətinin rəhbərliyinə və əməkdaşlarına həm öz adından, həm də ahıllar adından dərin minnətdarlığını çatdırdı.










# AmCham faydalı ünsiyyət imkanları təqdim edir

**2020-ci ilin iyun ayında SOCAR Polymer şirkəti ilə əməkdaşlıq quran Azərbaycanda Amerika Ticarət Palatası (AmCham) həmin vaxtdan etibarən işçilərimizi qanunvericilik və uyğunluq, gömrük və vergi, davamlı inkişaf və korporativ təsir, bankçılıq, maliyyə və sığorta, iqtisadi islahatların təhlili, texniki peşə və peşə təhsili və s. kimi aktual sahələrə və biznesdəki məsələlərə həsr olunmuş tədbirlərdə iştirak etməyə təşviq etməkdə fəaldır.**

AmCham, Azərbaycanda aparıcı özəl və qeyri-kommersiya iş birliyidir. Üzv şirkətlərinə yüksək keyfiyyətli xidmətlər göstərməklə yanaşı, Azərbaycanda işgüzar mühitin yaxşılaşdırılması üzərində işləməklə iş maraqlarını təbliğ edir. Alınan investisiyaların 80%-dən çoxunun xarici olması ilə AmCham, 290-dan artıq üzvü üçün hər il 70-dən çox tədbir təşkil edir.

Tədbirlərdə iştirak pulsuzdur. Tədbirlərin aparıcı dili bu günə qədər Azərbaycan, ingilis və ya türk dilləri olmuşdur. Keçmiş tədbirlərin natiqləri həm xarici, həm də yerli mütəxəssislər, məsələn, dövlət qurumları və özəl və ya ictimai təşkilatların direktor müavinləri və şöbə müdirləri, müxtəlif şirkətlərin rəhbərləri və mütəxəssisləri, hətta biznes mövzusunda kitab yazan müəlliflər olmuşlardır.

Keçirilən onlayn görüşlərin və veb-seminarların gündəliyinə aşağıdakı mövzular daxil olmuşdur:

- **İR-ın avtomatlaşdırma prosesi ilə rəqəmsal işə qəbul və istedadın inkişafı**
- **Əmək qanunvericiliyində və həmçinin onlayn iş rejimində gözlənilən dəyişikliklər**
- **Dövlət Vergi Xidmətinin vergi ödəyicilərinin şəffaflığına dair təşəbbüsləri**
- **Vergi əfvinə dair yeniləmə**
- **Riskli vergi ödəyicilərinin və riskli əməliyyatların meyarları**
- **İT hüquqlarının qorunması və icrası**
- **IP (Əqli mülkiyyət) Agentliyinin müəssisələrin əqli mülkiyyət hüquqlarının qorunmasında rolu**
- **Ənənəvi Korporativ Sosial Məsuliyyət fəaliyyətlərindən uzunmüddətli dəyər yaratmaq strategiyalarına keçid**
- **İnvestisiyanın sosial gəliri (SROI)**
- **COVID-19 böhranın maliyyə sektoruna təsiri**
- **Qlobal sənaye ehtiyaclarına hazır olan azərbaycanlı istedadların yetişdirilməsi üçün ən yaxşı texniki peşə və peşəkarlıq təhsili**
- **Bazar araşdırması, məhsul seçimi, bazara giriş strategiyası, lojistik tərəfdaşın müəyyənləşdirilməsi və s.**
- **Amazon, WallMart və digər platformalar vasitəsilə məhsulların satışı**

Tədbirlər həftə içi iş saatlarında Zoom proqramı vasitəsi ilə həyata keçirilir. SOCAR Polymer əməkdaşları ixtisas sahələrinə aid mövzularda məlumat alacağı və səmərəli müzakirələr apara biləcəyi bu tipli tədbirlərdə iştirak etməyə təşviq olunur. Əlavə məlumat İR və ya İƏ şöbələrindən əldə edilə bilər.



www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KİMYA SƏNAYESİNDƏ
YENİ ÜFÜQLƏR AÇIRIQ

SOCAR
POLYMER